Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi (Qurumu)

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana

"Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği"

Elektron kitab N 71 (18 - 2019)

Orxan Aras

"Avropada Azərbaycan..."

Ədəbi publisitika və bədii nəsr əsərlərindən ibarət toplu

2019

YYSİB - Bakı - 2019

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxananın təqdimatında

“Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği”. Elektron kitab N 71 (18 - 2019)

Bu elektron nəşrlər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu ildə I maliyyə yardımı müsabiqəsinin qalibi olmuş, Şura tərəfindən maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi və www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxananın icra etdiyi “Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği” kulturoloji-geoinnövativ layihə çərçivəsində nəşrə hazırlanıb və yayımlanır.

Kulturoloji layihənin maliyyələşdirən qurum - Azərbaycan Respublikası Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası: www.cssn.gov.az

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi: www.yysq.kitabxana.net

Feysbukda “Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği” kulturoloji-geoinnövativ layihəsi çərçivəsində rəsmi səhifə: www.facebook.com/kreativlayihe

“Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği” bölümündəki elektron kitablar:

www.kitabxana.net/?oper=e_kitabxana&cat=184

Orxan Aras. "Avropada Azərbaycan…"

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana. 2019

Orxan Aras

"Avropada Azərbaycan..."

Ədəbi publisitika və bədii nəsr əsərlərindən ibarət toplu

Azərbaycan dilində

Kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb. 2019

YYSİB - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov), yazar-kulturoloq

“Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği” kulturoloji-geoinnövativ layihə haqqında

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin - #YYSIB - “Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği” kulturoloji-geoinnövativ layihəsi çərçivəsində yaradılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının 2019-cu il birinci qrant müsabiqəsinə Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin təqdim etdiyi “Xaricdə yaşayan azərbaycanlı yazıçıların əsərlərinin təbliği” layihəsi fərqləndirilib və o istiqamətdə geniş fəaliyyətə başlanıldı. Layihə maliyyə müsabiqəsinin “Ümumi, orta ixtisas və ali təhsil, mədəniyyət və incəsənətin inkişafına dair təşəbbüslər” istiqamətində ekspertlər tərəfindən yüksək qiymət alaraq qalib gəlmiş, may ayından dördaylıq gerçəkləşdiriləçək. 55 milyonluq dünya azərbaycanlılarının böyük əksəriyyəti xarici ölkələrdə yaşayırlar və onların da arasında müasir söz sənəti nümunələrini yaradanlar, diaspor - mühacir ədəbiyyatının istedadlı nümayəndələrinin düşüncə məhsulları, əsərlərini hələ də tanınmır, lazımınca yayılmayıb. Layihə virtual imkanlardan yararlanaraq milli diaspor ədəbiyyatını Azərbaycanı birləşdirən kulturoloji-ədəbi model kimi izləyir, e-kitblarla humanitar düşüncəmizin bu istiqamətinin araşdırılması, tədqiqi, populyarlaşmasını dəstəkləyir.

DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil ölünmur.

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana. 2019

Orxan Aras

"Avropada Azərbaycan..."

Ədəbi publisitika və bədii nəsr toplusu

Azərbaycan və türk dilində

© Orxan Aras

© YYSİB

© kitabxana.net

YYSİB - Bakı - 2019

Bədii nəsr

Hekayə

ŞƏHƏR VƏ İNSAN...

Hər şəhərin bir əfsanəsi vardır mütləq. Almaniyanın şimal-qərbində sərhəd şəhəri Axenin (Aachen) isə min bir əfsanəsi var. Axendə yaşayan bir dostum məni səkkiz künclü Şarlman kilsəsinin önünə gətirəndə yadıma o əfsanələr düşdü. Kilsənin içindəki frankların böyük kralı Şarlmanın məzarı qarşısında dayanaraq o əfsanələri düşündüm.

Əfsanələrdən birində guya məşhur Abbasi xəlifəsi Harun Ər Rəşidin frank kralı Şarlmana müqəddəs Qüds şəhərinin açarlarını verməsindən bəhs olunur. Digər əfsanə daha maraqlıdır. Guya Şarlman səksən minlik ordusu ilə İstanbul üzərindən Qüdsə getmiş, Kamamədə həzrət İsanın taxtına özü, on iki həvarisinin yerlərinə isə baronlarını oturtmuşdur...

Bu əfsanələrdən gerçəyə yaxın olanı Harun Ər Rəşidin Şarlmana rahib Zaxar vasitəsilə bir çadır və su ilə işləyən bir saat göndərməsi hadisəsidir. Bundan başqa, almanların Böyük I Karl (Karl 1. der Grosse) dedikləri Şarlman müsəlmanları sadəcə İspaniyada əndəlüslərə qarşı savaşda görmüşdü. Əndəlüs dedim yadıma bir şey düşdü. Axen şəhəri, eyni zamanda bir vaxtlar müsəlmanların İspaniyadakı ən gözəl şəhərlərindən olan Toledo ilə qardaş şəhərdir.

Nə isə... Dostumla kilsənin qarşısında ayrılırıq. Yan küçələr almanların "gasse" adlandırdığı dar küçələrlə doludur. Bir at arabasının keçə biləcəyi qədər dar küçələrin başında bir-birindən maraqlı heykəllər boy verir. Bəzən bir-birinin boynuna sarılan iki rahib qılıqlı adam, bəzən də həzrət Məryəmin qucağındakı həzrət İsanı xatırladan uşaqlar...

Bu şəhərdə iki yüz əlli mindən çox insan yaşayırmış. Xaricdən gələnlərin sayı yüzdə on yeddidir. Bu isə təxminən əlli min başqa millətdən olan insan deməkdir.

Dostum qırx ilə yaxındır Axendə yaşayır. Hələ tələbə ikən buraya oxumağa gəlmişdi. Necə həyəcanla, ümidlə gəldiyini soruşmadım ondan. Amma o, yeri gəldikcə gənclik günlərinə qısa bir yolçuluq edir, böyüyüb boya-başa çatdığı kəndindən və dostlarından həsrətlə söz açır. Sonra tarixi bir binanın yanından keçəndə Axen və o tarixi bina haqqında məlumat verməyə başlayır:

"Bura Romadan qalmış kiçik bir qalıntıdır. Vitrinin üzərində Romadan qalma bir kurort bölməsi olduğu yazılmışdır. Bəlkə də o dönəmlər hamam imiş. Elə tam qarşısında böyük bir İstisu kurort məkanı var. Qalın sütunlarla əhatəyə alınmış həyətdə əl-üz yuma yerləri qurulmuşdur. Kranı açdığımda əllərimə ipisti su axır. Buraya Hersoq Karl Ferdinantından tutmuş

Hollandiya kralı Lüdviqə qədər yüzlərlə əsilzadə müalicə məqsədilə gəlirmişlər. Gələnlərin adı divarların üzərinə həkk olunmuşdur.

Oradan ayrılıb yuxarılara doğru qalxırıq. Şəhər, əslində, Şarlman kilsəsinin ətrafında qurulmuşdur. Dar küçələri çevrələyən geniş meydanlıqlarda onlarla kafe var... Narın yağış yağmasına rəğmən insanlar oturub keflə pivələrini içirlər.

Dostum məni Körberqassedən (Körbergasse) keçirib aşağı aparır. Küçələrin yolları eynilə İçərişəhərdəki daş döşəməli yollar kimidir. Amma hamısında keçmişə, tarixə bir hörmət var. Hər küncündə "mən tarixəm!" deyə bağıran binalara, binaların pəncərə və qapılarını bir xəzinəyə çevirən naxışlara baxdıqca onları yeni binalarla müqayisə edir, keçmişdəki insanların əməyinə, səbrinə, zövqünə qibtə edirik.

İki tərəfi də kafelərlə dolu olan bir küçəyə girincə dostumun üzündə bir gülümsəmə bəlirdi:

"Yorulmadın, deyilmi?" - soruşaraq üzümə baxır.

"Yox, yorulmadım!" - deyirəm.

"İndi səni maraqlı bir adamla tanış edəcəm".

Keflə yeriyirik.

Bir kafenin qarşısında dayanıb qısa boylu, qara köynəkli, bığlı birisilə qucaqlaşıb görüşür. Adam elə istiqanlıdır ki, sanki qırx illik dostummuş kimi mən də qucaqlaşıb görüşürəm onunla. İkimizi də qarşısında otuzdurub bizdən soruşmadan çay ismarlayır. Sonra masanın üzərindəki incə purolardan birini tüstülətməyə başlayır. Gözlərimin içinə baxaraq: "Səni tanıyıram", - deyir. "Amma mən sizi xatırlamadım", - deyirəm. "Ziyanı yoxdur, biz tanış deyilik onsuz da", - deyərək cavab verir. Puronu içinə çəkib gülümsəyir.

Çox qəribə birisidir, sanki tanıyıram kimi gəlir mənə. Əsmər üzü, keçəl başı, gülüncə yanaqlarında əmələ gələn zənəxdanları, işıqlı gözləri...

Soruşmağa macal tapmamış: "Bilirsənmi, mənim babalarım İrəvandan köç etmişlər", - deyir.

- İrəvanmı?

- Bəli, İrəvan!

İndiki nəsil bilməyə bilər. Halbuki, İrəvan dedikləri Osmanlının ən böyük hökmdarlarından biri olan IV Muradın məşhur vəziri Mustafa Paşa ilə on iki min əsgərinin ruhu bəlkə də hələ oralardadır.

1635-ci ilin 28 martında iki yüz min əsgərlə yola çıxan 23 yaşındakı bu gənc bəxtsiz hökmdar iyul ayında Rəvana çatır, oranı fəth etdikdən sonra avqustun

onunda indi yeri xarabaya dönən Böyük İrəvan məscidində adına xütbə oxutdurараq oranı vəziri Mustafa Paşaya əmanət edib İstanbula doğru yola çıxar.

Bəli, İrəvan o İrəvandır. İndi Ermənistanın paytaxtı olan küçələri türksüz, məscidləri yetim qalan şəhər...

"Bəs atan necə gəlib çıxıb buralara?".

"Qardaşlarıyla... 1927-ci il... Sovetlər İttifaqında Stalin dönəmi və kolxozlaşma səfərbərliyinin başladığı illər. Babam gecələrin birində oğullarını oyandırır. "Qalxın, getmək vaxtıdır!" - deyir.

Onlara o biri otaqda yatan bacı-qardaşlarını göstərərək: "Yaxşı-yaxşı baxın, bəlkə bir-birinizi bir daha görmədiniz..." - deyir.

Diqqətlə baxarlar yatanlarına... Bu son baxış, bu son görüşdür. Doğrudan da, bir daha bir-birlərini görməzlər. İki qardaş, bir qonşu və bir xalaoğlu özlərini gecə vaxtı Araz çayının dəli sularına atarlar... Ruslar xəbər tutar, itləri buraxarlar. Amma onlar cəld tərpənib yaxalanmadan Türkiyəyə keçərlər.

- Sonra?

- Sonrası uzun hekayə... Bunları böyük qardaşım məndən daha yaxşı bilər, ancaq o, Türkiyədə yaşayır.

Bir az söhbətinə ara verir. Dalınca kofe ismarlayır. Ac olub-olmadığımızı soruşur. Təşəkkür edirik. Anidən mövzunu dəyişib öz həyatına keçir. Almaniyadakı həyatından, tənhalığından, atasının məzarına həsrət qalmasından danışır. Atasından danışdıqca gözləri dolur və əlinin tərsiylə gözünün yaşını silir.

Ardından qısa bir qəhqəhə atır, güldükcə gözəlləşir. Geriqalmışlıqdan, irəli getməkdən söz açır. Sonra anidən səssizləşib sözü Türkiyəyə gətirir:

- Əslində, qayıtmaq istəyirəm, - deyir.

Bax bu qayıdış sözü! Hər kəsi necə də qəribləşdirir. İnsanın ruhunu əsir edən "Vətən" duyğusu bu olsa gərək!

"Aslında dönmek istiyorum," - diyor.

Qırx səkkiz illik bir qürbət və geri dönüş... Haraya, kimə, hansı qucağa geri dönüş? Bəlkə də ata ocağında qalmış bir ağaca, bir qarış torpağa qayıdış... Bir ovuc xatirələrə qayıdış... İnsanı çəkən bax, budur. Əslində, mən də ona İrəvandan, Hacı Əhməd babamdan, onun Zal hamamının yanındakı dükanından söz açmaq istəyirəm, amma yenə İrəvan adını eşidib hüzünlənəcək deyə susuram.

Mövzunu dəyişirəm. Soyadını soruşuram. "Aran" - deyir.

- Mənası nədir, bilirsənmi? - deyə soruşuram.

- Yaylaq deməkdir...

Uzaqdakı yaylaqlar, ovalar, Araz çayı, başı qarlı Ağrı dağı canlanır gözümün önündə... Hamımız bir dağın, bir yamacın, bir yaylağın əsiri olub getmişik. Bu həsrətin içindəki bu şəhərin, bu "gasse"lərin, bu kilsələrin və hətta Böyük Şarlmanın nə əhəmiyyəti var ki?!

Vidalaşıb, qucaqlaşıb, görüşüb ayrılırıq oradan... Aran bəy gülümsəyərək əl sallayır.

Burada bir şəhər var. Tam Belçika ilə Hollandiya sərhədində. İçində əfsanələri, kralları, kral məzarları, istisuları var. Amma onlardan da vacib İrəvan, İrəvandan gələn bir elçi, bir həsrət var burada. Əslində, bütün yazı boyunca bu həsrəti tərif etmək istəmişdim. Dostuma Abdurrəhman Qaraqoçdan bir şeir oxuyub yolumuza davam edirik:

"Artık ne kar yağar ne ben üşürüm

Ne de saçlarımı dağıtır rüzgar.

Yaşarken bir günde bin kez ölürdüm.

Artık ölüm yoktur, ölümsüzlük var".

Ədəbi publisitika

Tənha həyatlar...

"Qaçacaq heç bir yer yoxdur!"

Muhiddin Arabi

"Hər kəs təkliyi fərqli yaşayar", - deyə yazmış Katharina Zimmer. Əlbəttə ki, əhalisinin yüzdə əllisi təkliyi tərcih edən bir ölkədə yalqızlığın kitabını yazmaq, buna da "Tənha yaşamaq sənəti" adını vermək çox asan görünə bilər. Amma yalqızlığı içə dönüş (Münzəvilik) olaraq görən bir mədəniyyətin övladları olaraq bizlər hər tənhalığı düşündüyümüzdə dərin bir sükunət sarar içimizi.

"Tənha yaşamaq sənəti", "Anla məni, nə olar", "Eşq sadəcə bir kəlmədirmi", "Tənha uşaq" kimi əsərlərin müəllifi K.Zimmer kitabında tənha insanın qorxularından qurtulması üçün çıxış yolları göstərməyə çalışır. Onu ürəkləndirir. Onun cəmiyyətə, ailəyə təkrar geri dönməsi üçün öyüd-nəsihət verir. "Tənha insanın" kəlmələrlə əlindən tutmağa çalışır:

"Baharda tənha olmaq payızda tənha olmaqdan fərqlidir", - deyər. "İşıq bizi daha oyaq və daha həssas edər, daha pozitiv olarıq", - deyərək nəsihət verər.

Günahı artan qaranlığa yükləyər. Tənha şair Hölderlinə, könlü qırıq şair Rilkeyə istinadlar edər. "Sarı armudlar, vəhşi güllərin torpaq üzərinə əyilməsi, öpüşlərdən sərxoş olmuş zərif Qu quşları..." kimi bənzətmələrlə önümüzə cənnət kimi bir mənzərə sərməyə çalışır. Amma tənhalığın bir qopuqluq, bir qaçış sindromu olduğu gerçəyini unutdura bilməz. Çünki Qərbin "tənhalıq fəlsəfəsi" çox dərinlərə qədər gedib çıxar. Onu unutdurmaq mümkün deyildir. Sadəcə, rəngləndirilə bilər... K.Zimmer də buna çalışmışdır.

Əslində, Qərblə Şərq arasında klassik və müasir qavramların fərqlilikləri sadəcə qavramların mənaları ilə məhdud deyildir. Kəlmələrə yüklənən anlamlar da fərqlidir. Məsələn, "tənhalıq" sözü təcrid və ya qaçış olaraq qəbul edilərkən, bizdə sığınma və varlığının fərqində olaraq başa düşülməkdədir. Hətta Şopenhauer tənhalığı özgürlüyün təməli hesab edər: "Tənhalığı sevməyən özgürlüyü də sevməz. Adam ancaq tənha olduğunda özgürdür".

Müsəlman olmuş alman psixoloqu Mikaela Özelsel "Xəlvətdə 40 gün" adlı kitabının sonunda bir tədqiqata yer verir. Xəlvətdə qalan bir qadın tənhalığı var oluşunun fərqində olmaq və özünü tanımaq kimi yorumlayır (s.211). Bu tərif, əslində, yeni bir şey deyil. XIII əsrin sufilərindən Attarın "Məntiq ül Tayr" kitabındakı quşların yolçuluğu da bir özünə

yolçuluqdur və ən sonunda da özünü, mənliyini tapmaqdır. Quşlar yeddi vadidən, yəni təkamülün yeddi mərhələsindən keçərək yenə özlərinə gələrlər.

Katharina Zimmer Almaniyada 1970-ci illərdə təkbaşına yaşayanların nisbətinin yüzdə iyirmi beş ikən, 2000-ci illərdə qırxa çıxdığını, hətta Frankfurt kimi şəhərdə yüzdə əllini keçdiyini yazmaqdadır.1 Bu səbəbdən tənhalığın artıq bir qorxu deyil, bir tərcih olduğunu vurğulayar. O, sıx-sıx tənhalığın bir seçim, yoxsa məcburiyyətmi olduğu sualını verər.

Əslində, sual insana yönəlibsə, cavabı çox bəsitdir. Çünki heç kim tənhalığı tərcih etməz. Bu, insanın fitrətinə uyğun deyil. Amma sual sistem üçündürsə, buna da ziddir. Çünki kapitalist sistemin istismar çarxında onun üçün tənha insan daha məhsuldardır. Ayrıca olaraq da istehlak cəmiyyətinin dayatdığı "satınalma təzyiqi" insanı məcburi olaraq tənha yaşamağa sürükləməkdədir. Çünki evin və ailənin xərci kapitalist sistemdə bir yük olaraq qəbul edilməkdə və bundan qaçılmaqdadır.

Monten (Montaigne): "Ailəni idarə etmək dövləti idarə etməkdən asan deyildir", - deyər və adətən tənhalığa haqq qazandırır.

Məşhur Kvant fizikası alimi Hans Peter Dürr isə ailə yükünü insan özgürlüyü üçün təhlükəli görür və belə

yazır: "Bu insanlar müasir cəmiyyətin tələbi istiqamətində sərbəstliyin işığında həyatlarını qurmuşlar. Tənhalığı tərcih edənlər camaatın təzyiqini qəbul eməyən, gələcəyin ideal cəmiyyət varlıqlarıdırlar".2

Filosof Buber də tənhalığın özgürlüyün təməli olduğunu müdafiə edənlərdəndir. Ona görə bir insanın düzgün bir fərd ola bilməsi üçün başqalarından ayrı qalması lazımdır.

Alman əsilli amerikalı teoloq Tillix (Tillich) tənhalığın iki yönünü ifadə edərək ingilis dilində iki qavramın əmələ gəlməsinə səbəb olmuşdur.

Tənha olmanın acısını ifadə etmək üzrə "Tənhalıq"(Loneliness); tənha olmanın ihtişamını ifadə etmək üzrə də "özbaşına olmaq" (Solitude)...

Tillixə görə, insan təkbaşına qaldığında və ya bir cəmiyyətdən təcrid edildiyini hiss etdiyində tənha adamdır. Tənha adam əgər iç dünyasına dönər və yeni düşüncələr kəşf edə bilirsə, o zaman tənhalığa haqq qazanar.3

Göründüyü kimi, "tənhalıq" Qərb ədəbiyyatında müstəqil olmanın, individuallaşmağın ana ünsürləri olaraq ortaya çıxmaqdadır.

Yaxşı, bəs tənhalığın gətirdiyi qorxuları, əskikliklərı, xəstəlikləri necə aşacağıq?

Katharina Zimmer kitabında buna bir motivə siyahısı ilə cavab verməkdədir. Hətta bir ana şəfqəti ilə! "Bu siyahını həmişə üzərinizdə gəzdirməlisiniz!" deməkdədir. Motivə siyahısı tənha adamı yenidən cəmiyyətə yamaq etməkdən başqa bir şey deyildir.

"İnsanlarla daha çox ünsiyyət qura bilərəm.

Gəzməyə-kafeyə daha çox gedə bilərəm.

Modaya uyğun geyinə bilərəm.

Rəqs kurslarına yazıla bilərəm.

Özümü ətrafımdakılara daha yaxşı

qəbul etdirə bilərəm".

Yaxşı, bəs sərbəstlik və fərd olmaq arzusu harada qaldı? Bu sualın cavabı, əslində, Katharina Zimmerdə yoxdur. O, sadəcə, "tənha adama" qaçışdan qurtulmanın yolunu göstərməkdədir.

Şərqdə tənhalıq öz içində xəlvətə çəkilməkdir. Xəlvətə çəkilmək üçünsə eşqə susamaq, onunla həmhal olmaq lazımdır. Mövlana "Divani Kəbir"də: "Aşiq olmayanın insanlığını inkar edərəm", - demişdir.

Pakistanın böyük şairi İqbal da buna yaxın söyləmişdir. Ən məşhur əsəri "Cavidnamə"də oğluna səslənir: "Allah sənə eşq və hərarət ihsan etsin!", - deyə dua edir. Ona görə əsrin xəstəliyi sevgisizlikdir. Bu sevgisizlik həm fərdi, həm də toplumu təhrif edir. Xəlvətə çəkilmə isə eşqi əmələ gətirir, eşq olduqca insan inkişaf edir, mənlik qazanır və həyatın sirrini kəşf etməyə hazırlanır.

Təsəvvüfdə müridin ilk halı xəlvətə çəkilmə (uzlət) halıdır. Bu hal o, xalqdan qaçsın deyə deyildir. Sadəcə, pis əxlaqdan qaçması üçün özünü tənhalığa məhkum edir. Xəlvətə çəkilmə sifətləri dəyişdirməkdir. Onlar bir hədisə əsaslanaraq, qaçışı deyil, xəlvəti seçərlər. "İnsanların içinə qarışıb, onların əzablarına səbr edən kəs, insanlara qarışmayıb əzablarına səbr etməyən kəsdən daha xeyirlidir".4 Çünki bu hədisə görə, cəmiyyətlə qalan cəmiyyətdən qaçandan daha xeyirlidir.

Xəlvətə çəkilmə insanın özüylə hesablaşmağıdır. Xəlvətə çəkilmə səbri öyrənməsi, acını ruhunda hiss etməsi və həyatın içində gizlənmiş sirləri anlaması deməkdir. İnsan xəlvətdə özünü tanıyar, sonsuzluğa aşiq olar. Bu xəlvətə çəkilmə halı hər sufidə, hər gerçək şairdə vardır.

Füzulinin xəlvətə çəkilməsi yamandır:

"Yetdi bi-kesliğüm ol gayətə kim çevrəmdə

Kimsə yox cizginə girdab-ı bəladan gayrı

Nə yanar kimsə mana atəş-i dildən özgə

Nə açar kimsə kapum bad-ı səbadan gayrı".

O bəlalar, rüzgardan başqa qapını kimsənin döyməməsi ruh yüksəkliyi üçündür. Ruh o yüksəkliyə ərmədən eşqə varmaz, aşiq olammaz. Çünki əsl məqsəd eşqdir. Aşiq olunca artıq Yunus olarsan:

"İşitin ey yarenler! Aşk bir güneşe benzer,

Aşk olmayan gönül, misali taşa benzer

Taş gönülde ne biter, dilinde ağu tüter!

Nice yumuşak söylese sözü savaşa benzer".

Füzuli eşqin bəlasından, tənhalığın acısından şikayət etməz. Hətta onlarla öyünər. Çünki xəlvətə çəkilmə tənhalığı ilə necə bir məqama varacağının şüurundadır. Xəlvətə çəkilmə, əslində, geri çəkilmə ilə pisliklərə bir üsyandır. Maddənin təsir sahəsindən qurtulmaq, öz-özünə bəs etmək, ehtiyacları ən aşağı səviyyələrə endirmək və bütün maddi xidmətlərdən uzaqlaşmaq halı "Eşq"ə qul olmaq arzusudur.

Bu səbəbdən Şərqdə yalnızlıq xəlvətə çəkilməkdir. Qərbdə isə əziyyət...

Biz hər tənhalığımızda Yunus, Füzuli eşqinin şeirlərini oxusaq, tənha yaşamağın sənətini öyrənməyə heç ehtiyac duymarıq.

1. K. Zimmer, "Tənha yaşamaq sənəti", Gendaş yayınları, s. 5, 6, Çevirən Bilgehan Karataş.
2. Hans Peter Dürrlə reportaj, "Der Spiegel", № 49/2000, "Der Genussmensch ohne Herz".
3. Karnick Paula "Tənhalıq hissi: Teorik yanaşmalar".
4. Tirmizi, İbn Macə.

Din, ədəbiyyat və cəmiyyət...

Sadəcə, rus ədəbiyyatının deyil, dünya ədəbiyyatının ən böyük yazıçılarından biri olan Qoqol 1852-ci ilin soyuq fevral ayında Moskvadakı evində acılar içində ölümünü qarşıladı. Öldüyündə 43 yaşında idi. 9 gün boyunca nə su içmiş, nə yemək yemişdi.

Qoqol ölüm yatağına yatmadan öncə ən məşhur əsəri olan "Ölü canlar"ı evindəki kaminə atıb yandırmışdı. Çünki yazıçının bu çətin günlərində rahib Matvey Konstantinovskinin tələqin etdiyinə görə, bu sətirləri yazıçıya şeytan yazdırmışdı.

Qərb ədəbiyyatına görə, din ya qorxu, ya da üsyandır.

Nihilizmin atası Turgenev də eyni mübahisələri romanlarına daşımışdır. "Atalar və oğullar"dakı üsyankar və nihilist Bazarov əsilzadə, eyni zamanda mühafizəkar bir ailənin övladıdır. Amma böyüdüyü mühit onu ateist etmişdir. Ənənəvi dəyərlərə inanmırdı.

Dostuna: "Göy gurladığı zaman xalq İlyas peyğəmbərin arabası ilə göy üzündə gəzdiyinə inanır. Mən də onlaramı qoşulmalıyam?!", - deyə etirazla söylərdi.

Bazarova görə ailə, evliliklər də gərəksizdir. Dostu Arkadiyə: "Demək hələ də nikah sənin üçün belə vacibdir, hə? Bunu səndən gözləməzdim!", - deyə şikayət edərdi.

Üsyan, qorxu, peşmanlıq, qaçış və tərəddüdlər bu əsərlərin süjet xəttidir. İnsanı təqib edən yalnızlıq və yadlıq gerçəklikdən uzaq inanclarla birlikdə Qərb yazıçılarının və oxucularının beynində dərin travmalara yol açmışdır. Dostoyevskidə də bunları görə bilərik.

Tolstoy təmiz bir xristianlığın həsrətini çəkmişdi. Əslində, əsərlərində təcrübə etdiyi Qərb anlayışından qopuq bir Şərq mistizmidir.

Onun "Diriliş" adlı romanı dəhşətli bir "tövbə" yolçuluğudur. Şahzadə Nexlyudovun xadimə qız Maslovanı yoldan çıxarması və peşmanlığı romana bir vicdan dirilişinin damğasını vurmasına səbəb olmuşdur. Tolstoy Qərb terminologiyasındakı qorxulu Tanrının yerinə insanı yalnız buraxmayan mərhəmətli bir Yaradan xəyal etmişdir.

Viktor Hüqonun "Səfillər" romanındakı Diqne Baş yepiskopu Bienvenunun oğru Jan Valjan qarşısındakı duruşu və "dostum, o şamdanlar getmədən onları da al", - deyə səslənişi on doqquzuncu yüzildə pozivitizmin şaxələnməsinə rəğmən Yaradanın

mərhəmətli bir səsi olaraq alqılanmış, bu günə qədər insanlara təsir etməkdədir.

Bu kimi romanlardan başqa, Volter, Didro kimi aydınların kilsələrə etirazı, kilsənin toplumu geri buraxan və istismarçı bir ünsür olaraq görmələri də onların əsərlərində yer almış, cəmiyyətə dərin təsir etmişdir. Didronun "Rahibə" romanı bir monastırdakı qadınların vəziyyəti, insan təbiətinə zidd bir nizama tənqidin zirvəsidir.

Burada Volter və Didroyla fərqli bir yerdə dayanan Russonu xatırlamamaq bir əskiklik olardı. O, kilsəyə yaxın duruş sərgiləməsə də, dindən tam qopmamış, amma fərdi sərbəstlik və insanın təbii haqları mövzusunu əsərlərində işləmişdir.

Əslində, on doqquzuncu yüzil Qərb ədəbiyyatı üsyan və inkar ədəbiyyatıdır. Səbəbi də maşınların kəşfi ilə insanın Tanrı səviyyəsinə çıxardılmasıdır.

Renessans insan və dinin yenidən tərifi yavaş-yavaş ortaya çıxan kəşflər, istər-istəməz aydınlar üzərində dərin təsir oyandırırdı. Xüsusilə katolik kilsəsinin ağır təzyiqi, bütün yeni fikirlərin rəddi və məhkum edilməsi Qərb üçün bir kabus idi. Bu kabusdan qurtulmaq üçün də belə dindən uzaq ədəbiyyata ehtiyac vardı. Kilsənin zəncirlərini qırmaq istəyən yazıçı və şairləri

kilsənin mərhəmətsiz Tanrısına hücum edirdilər. Qərbdə bu hücumların yüzlərlə nümunəsi vardır.

Cəmiyyət yeni ədəbiyyat növündən təsirlənmiş və kilsəyə qarşı daha təmkinli olmağa başlamışdır. 1500-cü illərdən, xüsusilə Almaniyada Martin Lüterin ortaya çıxışından sonra da bu "dindən uzaq ədəbiyyat" artaraq davam etmişdir. Amma dinin tamamilə ədəbiyyatdan ayrılması əsla mümkün olmamışdır. Xristianlığa, daha doğrusu, kilsəyə məsafəli davranan Geothe kimi aydınlar ən məşhur (məsələn, "Faust" əsərində) əsərlərində din və insan mövzusunu işləməyə davam etmişlər.

Türkiyədə ədəbiyyat "Tanzimat"a (Osmanlıda 1839 reforma fərmanıdır) qədər din və eşq ağırlıqlıdır."Tanzimat"dan sonra Qərbin təsirilə sadəcə dindən kənar deyil, din əleyhinə də axınlar romanlarda, şeirlərdə yer almağa başlamışdır. Baha Tevfik, Abdullah Cevdət, Tevfik Fikrət kimi yazıçı və şairlər dini cəmiyyəti geri buraxan ən böyük səbəb olaraq görmüşdülər. Onların əleyhdarlarından olan Məhmət Akif isə şeirində islamın gülən və işıqlandıran üzünü mövzu etmişdir. Ölkədəki problemlərin fərqində olan şair dini fanatizmin də fərqində olaraq dini mövzuları tərənnüm etmişdir.

Məhmət Akifdən sonra Nəcip Fazıl, Sezai Karakoç kimi şairlər əsərlərində dini sadəcə təbliğ olaraq deyil,

üsyan və aydınlanma olaraq da verməyə çalışmışdılar. Xüsusilə, Nəcip Fazıl şeirlərində islam dinini tərənnüm edərkən məqsədin "Allah axtarışı" olduğunu ifadə etmişdir.

"Anladım işi, sanat Allah' ı aramakmış,

Marifet bu, gerisi yalnız çelik-çomakmış..."

Sezai Karakoçun əsərlərində din mövzusu diqqətə çarpan deyil. O, məsələni daha çox mədəniyyət səviyyəsində ələ alır. Şairə görə Şərqi Şərq edən islam mədəniyyətidir. Şərqin Qərb qarşısındakı susqunluğu-məğlubiyyət sindromu gerçəkçi deyildir.

Bu fikirlər, sadəcə, şeir və romanlarla məhdudlaşmaz. Ədəbiyyat yoluyla cəmiyyətə siraət edən fikirlər özünə hər yerdə tərəfdarlar və yaşama məskəni tapırlar.

Yuxarıda qısaca bəzi nümunələrlə göstərdiyimiz ədəbiyyat adamları və əsərlər ümumiləşdirilərək ələ alındığında ədəbiyyatın cəmiyyət üçün nə qədər vacib olduğu ortaya çıxır. Bu səbəbdən hər sistem ədbiyyatı öz kontrolu altına almaq istəmişdir.

Sovet İttifaqı zamanı həm rəsmi sovet ədəbiyyatı ədəbi dili məcburi hala gətirilmiş, həm də əleyhdar "Samizdat" dedikləri "yeraltı ədəbiyyat" inkişaf etmişdir. İki ədəbiyyat növünün də bu günə qədər

köhnə Sovet cəmiyyətləri arasında davam etdiyini söyləyə bilərik.

Kapitalist cəmiyyətinin təbliğat vasitələri olaraq istifadə etdiyi ədəbiyyat, filmlər (Ceyms Bond filmləri və Almaniyadakı Konsalikin yazdığı sovet mövzulu romanlar) Sovet sistemini qaralamaq məqsədi güdürdü.

Türkiyədə Cümhuriyyətin yaradılmasından sonra şeir və romanda rəsmi diskussiyaları ədəbiyyata keçirən Bəhcət Necatigil, Yaqub Kadri kimi yazıçı və şairləri nümunə göstərə bilərik.

Cümhuriyyətin ilk zamanında quru bir pozitivizmin ədəbiyyata hakim kimi görünsə də, yazılanlar xalq üzərində o qədər də təsir etmədi. Əlifbanın da tədricən deyil, birdən dəyişdirilməsi maariflənmə səviyyəsinin o qədər də yüksək olmaması bu cür rəsmi ifadəni əks etdirən ədəbiyyatın yayılmasının qarşısına keçdi. Oxumuş şəhərli kəsimdən çıxan yazıçılar daha çox sol ədəbiyyatı mənimsədilər. Belə ki, dini ya tamamən əsərlərindən çıxardılar, ya da dindarları təhqir edən əsərlərə imza atdılar. Onlara müxalifət olan mühafizəkar yazıçılardan Peyami Safa spiritualizmlə birlikdə modern və əski cəmiyyət arasındakı ziddiyyətlər müasirləşdikcə süniləşən, mədəni reqressivə məruz qalan insanların daxili dramlarını yazarkən, Əhməd Hamdi Tanpınar isə

daha çox "rədd və qəbul" ikiləşməsi üzərində dayanmışdır. Təəssüf ki, türk ədəbiyyatı Henrix Böll kimi həm mühafizəkar, həm də etirazçı bir yazıçı yetişdirməmişdir.

Nəticə olaraq, ədəbiyyat bir təqdimat və ifadə tərzidir. Buna görə də dinlərin və ideologiyaların cəmiyyətə təsir etməsi üçün ədəbiyyatı görməməzlikdən gəlmələri və rədd etmələri düşünüləmməz.

Cəmiyyətdəki ögeyləşdirilmə, qarşıdurmalar dərinləşdikcə mədəniyyətlərarası barış və ya qarşıdurma halı ortaya çıxdıqca, ədəbiyyat da özünə oralarda yer tapacaqdır. Nə cəmiyyətdən uzaqlaşan dini ifadələrin, nə də cəmiyyətin dilində danışmayan ədəbiyyatın insanlar üzərində təsiri düşünülə bilməz. Süni ədəbi qarşıdurmalar və "muzdlu aydınlar" cəmiyyətin dinamikləri tərəfindən tarix boyu silinmişlərdir. İnsanı, onun ruh aləmini, təbiəti mövzu edən ədəbiyyat nə qədər dini görməməzlikdən gəlirsə-gəlsin, mütləq dinin hiss olunan yanı görünəcəkdir. Dindən kənar ədəbiyyatda belə din təsiri hiss edilir. Bu səbəbdən ədəbiyyatı dindən "təmizləmək" əsla mümkün deyildir.

Henrix Böll, Köln və mən...

Almaniyada, nədənsə, payız tez keçib-gedir. Hələ sarı yarpaqların qoxusuna doymadan bir də baxırıq ki, qış gəldi. Qış qarla, soyuqla gəlsə, yaxşı olardı. Amma sislə, yağmurla və insanın içini qaraldan qara buludlarla gəlir. Artıq hər gün soyuq və islaq səkilərdə addımlamaq, uzaqlardakı ipisti günəşi özləməkdən başqa çarəniz yoxdur. Yurdunuzdan gətirdiyiniz türkülər hələ də könlünüzdə və dilinizdədirsə, o səkilərdə addımlamaq az da olsa xoş gəlir insana... Bir də şeirlər... Bu sıralar Nəcib Fazilin "Bu yağmur, bu yağmur" şeirini təkrarlamaqdan yoruldum və "Kaldırımlar" şeirinə sarıldım. Hər addımda ondan bir bənd oxuyuram:

"Kaldırımlar, çilekeş yalnızların annesi;

Kaldırımlar, içimde yaşamış bir insandır.

Kaldırımlar, duyulur, ses kesilince sesi;

Kaldırımlar, içimde kıvrılan bir lisandır".

Yad, soyuq və dilsiz səkilərlə danışmaq nə acıdır!

Dünən yenə hava sisli, yağışlı idi. Bu yağış insanı bezdirən, üsyan etdirən bir yağışdır. Dayanmadan, incə-incə yağar. Bəzən yağdığını belə hiss

etməzsiniz. Bir də baxırsınız ki, başdan-ayağa islanmısınız. Bəlkə də, buna görə Türkiyədə belə yağışa "axmaq isladan" deyirlər... Nə isə... Səssizcə çıxdım evdən. Həftədə bir dəfə Reyn çayına qədər piyada gəzirəm. Biz Kölnün şərqində yaşayırıq. Çaya qədər 4-5 kilometrlik yolumuz var. Oraya vardığımda əgər nəşəm yerindəsə, dəmir körpüdən qarşıya keçər, Karl Marksla Engelsin bir zamanlar yaşadıqları evin qarşısındakı kafedə kofemi içib geri dönərəm.

Bu dəfə kefsiz idim. Maşınla yola çıxdım. Zooparkın körpüsündən keçib, köhnə şəhərə doğru yol aldım. Bu yaxınlarda hərdən qarşısından keçdiyim bir yer vardı. Kölndə yaşamış almanların Nobel mükafatlı yazıçısı Henrix Böllün evi... Hansı şəhərə getsəm, orada mütləq ya bir şair, ya da yazıçı evi axtarıb taparam. Düsseldorfda şair Henrix Heynin, Ştutqartın Marbax qəsəbəsində Şillerin evlərini tapmış, onların şeirlərindən parçalar oxumuşdum. O məkanları tapdığımda yalnız olmadığımı, kitabını oxuduğum və adı mənə yad olmayan birisiylə yaxınlıq qurduğumu düşünüb rahatlayıram. Parisə ilk getdiyimdə də Yəhya Kamalın yaşadığı pansionu və davamlı getdiyi Monparnasdakı "Closerie des Lilas" adlı kafeni də axtarıb tapmışdım. Şairin adının yazıldığı masaya baxarkən dilimə onun o günlərdə yazdığı şeirdən misralar gəlmişdi:

"Eski Paris'de bir ömür geçti

İdeal rüzgarıyla hür geçti...".

O kafedə həm də böyük şairimizin masasında oturub kofe içmişdim. Amma ruhu orada yalnız deyildi. Kafedə yazılana görə, Lenin, Trotski, Sartr kimi məşhurların da yolu bu kafedən keçmişdi. Hətta Heminqueyin "Günəşdə doğular" əsərini bu kafedə yazdığını söyləyirdilər. O gündən sonra Parisdəki qəribçiliyim də beləcə sona yetmişdi. Ən böyük şairimizin ayaq izləri burada yanımda idi bax beləcə...

Kölndə də könlümü belə şeylərlə ovuduram. Hər küncündə bir tanış yazıçı və ya şair axtarıram. Hər kafesində şeir dadında bir kofe içməyə çalışıram. Bəzən rəssam və memar Klaus Uhliqin evinin qarşısında durar, onun pəncərələrinə baxaram, bəzən də Henrix Böllün beşmərtəbəli, pəncərə və qapı kəmərləri bəzəkli evinin qarşısından keçərkən yadıma onun "İrlandiya gündəmi", "Saat 9.30-da bilyard" romanlarından hadisələr düşür.

Allah bilir neçə dəfə bu gözəl evin qarşısından keçmişəm. Binanın ikinci mərtəbəsində yazıçı son günlərini yaşayıb. Evin qarşısında kiçik bir bağça var. Qocaman çinar ağacı yarpaqlarını tökmüş bu bağçaya.

O evə yaxın olan "Cafe Reichard"ın həyətində maşını park etdim. Böll, əcəba, bu kafedə oturub bir kofe

içdimi, bilmirəm! Qapının üstündə 1855 və böyük bir "R" hərfi olan bu kafeyə kimlər gəlməmiş ki! Həftə sonları iki çex sənətçinin piano və skripka çaldıqları, hətta 80 yaşlarında saçları, dodaqları boyalı şux alman qadınlarının qəhqəhə çəkib rəqs etdikləri bu kafe bəlli ki, içində musiqi və nəşə ilə birlikdə bir tarix yaşadırdı. İkinəfərlik bir masada oturdum və tədirginliklə sağa-sola qaçan ofisiantlara baxdım. Görəsən, bunlardan hansı Henrix Böllə xidmət etmiş, ona çay, kofe gətirmişdi?

1970-ci illərin alman kinosuna damğasını vuran gözəl və uğurlu aktrisası Romi Şnayder Alen Delondan ayrıldıqdan sonra ən depressiv anlarında Henrix Böllə məktublar yazıbmış. Hətta: "Nə olar, məktublarıma cavab ver", - deyə yalvarırmış. Böll ona bir sətir belə cavab yazmamışdır. Çünki nədənsə, Rominin heç bir məktubu ona çatmamışdı.

Henrix Böll nə qədər Almaniyadakı solçu etiraz mitinqlərini dəstəkləsə də, Sovet İttifaqından qaçan yazıçılara da qucaq açmışdı. 1974-cü ildə Sovet İttifaqından ayrılmaq məcburiyyətində qalan Aleksandr Soljenitsin və Lev Kopelev kimi yazıçılar aylarla onun evində qalmışlar.

İkiyə bölünmüş Almaniyada başa düşülməyən yazıçı xüsusilə 1972-ci ilin dekabrında burada terror olayına girişən Qızıl Ordu mənsublarını dəstəklədiyinə görə

alman polisinin qara siyahısına düşmüş, evi bir neçə dəfə polislər tərfindən basılıb axtarılmışdı.

Məşhur yazıçı 1984-cü il, iyunun 16-da vəfat etmişdir. Kitabları otuzdan çox dilə tərcümə edilmiş, milyonlarla satılmışdı. Ölümündən az öncə təkrar katolik kilsəsinə üzv olduğu deyilsə də, katolikləri ən çox tənqid edən də Henrix Böll olmuşdur. 1975-ci ildə mətbuata verdiyi bir müsahibəsində katolikləri əsəbləşdirmişdi: "Katolik kilsəsi Almaniyada kapitalist qanunlara görə qurulmuş bir şirkətdir".

Bütün bunlara rəğmən Böll vəsiyyətində katolik adətlərinə uyğun dəfn mərasimini vəsiyyət etmişdi. Bu vəsiyyəti alman katoliklərinin bir qisminin etirazına rəğmən Vatikan onun katolik məzhəbinə görə dəfn olunmasına razılıq vermiş və yazıçının cənazəsi Köln yaxınlığındakı Mertində alman prezidenti Veisşkerin də iştirakıyla bir katolik qəbiristanlığında dəfn edilmişdi. Onun ölümündən sonra on doqquz il yaşayan, 2004-cü ildə vəfat edən Böllün yanında basdırılan Annamari Böllün həyat yoldaşına aid olan: "Acısı, hüznü olmayan insan nə işə yarar?" sözünü tez-tez təkrarladığını söyləyərdilər.

İki ildən bəridir ki, liseylərdə, universitetlərdə və müxtəlif dərnəklərdə 100 illiyi qeyd edilən Henrix Böllün bir sözü nə zaman qələmi əlimə alsam, məni dərin düşüncələrə daldırar:

"Yazarkən, sadəcə, yazarkən dünyanı dəyişdirə bilirəm".

Əcəba, dəyişən dünyaya mən nə qədər təsir edə bilirəm?

“Bir qərib öldü” – deyələr...

Adil Mirseyid rəhmətə getdi... İstanbulda Sultan Əhməd meydanına doğru gedərkən aldım bu xəbəri. Həmən yaxındakı bir kafedə oturub bir çay sifariş etdim. Günorta əzanı oxunurdu. Uca minarələrdən yüksələn ilahi çağırışlar sanki Adil Mirseyidin ruhuna doğru axırdı...

Ah, bu dünya nə qəribədir... Hər şey bir su misalı axıb gedir. Ehtiras, vəzifə, şöhrət, pul - hamısı geridə qalır.

Birdən gözlərimin önündə Adil Mirseyidin saqqallı və qərib tavırlı rəsmi bəlirincə ağlıma qəriblərin şairi Yunus və onun belə ölümlər üçün yazdığı şeir düşdü:

“Bir qərib öldü” deyələr,
Üç gündən sonra duyalar.
Soyuq su ilə yuyalar
Öylə qərib – mənim kimi …

Adil Mirseyid də qəriblərdən bir qəribdi. Onu yaxından tanıya bilmədim. Bir neçə rəsmini və şeirini görmüşdüm. Çox fərqli bir üslubu vardı. İçə dönük, səssiz, öz-özüylə danışır kimi yazan bir qələmdi. Şeirlərində həm müzik, həm də rəng vardı. Onun haqqında bir yazı yazmışdım “525-ci qəzet”də. Çox

sevinmişdi. Geçən il Azərbaycana getdiyimdə görüşmüşdük. Qısa bir görüşməydi. Oğlu ilə birliktə Tofiq Abdinin evinin yaxınındakı parka gəlmişdi. O gün ikisi də necə nəşəli və həyatla doluydu! Bir il sonra öləcəklərini hardan biləcəklərdi ki?

Orda nələrdən danışmadıq. O, fransız şairlərindən bəhs etmişdi. Mən də alman şairlərindən... Ona Henrix Heinenin bir şeirini oxumuşdum:

Yuxarıda ullduzlar parlarkən
Biz burada xoşbəxt olmalıyıq
Aşağıda necə varsa, eləcə
Ölümün soyuq qollarında.

Adil Mirseyid daha çox fransız rəssamı Tuluza heyrandı.Onun rəsmlərindən, yaponlardan təsirlənməsindən, rənglərindən, afişalardakı Parisin dansçı və fahişə qadınlarından söz saldı. Danışarkən sanki yanımızdan aralanıb Parisə gedir, gəlirdi. Ömründə bir dəfə belə Parisə getməmiş bu insanı oraya sənətin ruhu uçururdu. Sena çayından, Şansölizeden, Notrdam kilsəsindən, ordakı kafelərdən,həvəskar küçə rəssamlarından bəhs edirdi. Danışarkən yarıyumulu gözlərini uzaqlara dikir, arabir əliylə bəmbəyaz olmuş saqqalını sığallayır və qərib-qərib gülümsəyirdi.

Çox danışacaqdıq, amma Tofiq abinin zarafatla qarışıq narahatlığından erkən qalxdıq. Yolboyu da söhbətdən qalmadıq. Bu onunla ilk və son görüşümüz idi. Bu görüşmə qısa olsa da, mənim ruhumda dərin izlər bıraxan bir görüşməydi.Bəzi insanlarla dəfələrlə görüşməmə rəğmən ondan bir küçük iz də qalmaz hafızəmdə. Amma Adil Mirseydlə qısa görüşmə, dünyadan, tamahdan, yalanlardan arındırılmış saf və sənət dolu bir görüşməydi.

Adil Mirseyid az yaşadı. 62 yaş nədir ki?! Şərqdə sənətçilə acı çəkərlər və qısa yaşarlar. Adil Mirseyid də onlardan biriydi.

Əbdürrəhim Qaraqoç necə deyirdi:

Artık nə qar yağar, nə mən üşürüm,
Nə də saçlarımı dağıdar rüzgar.
Yaşarken bir günde min yol ölürüm,
Artıq ölmək yoxdur, ölümsüzlük var.

Ruhu şad olsun Adil Mirseyidin!

İllər öncəsinə döndüm, qayıtdım...

Selam, Azer Bey!

Nasılsınız?

Bugün sabah uyanır uyanmaz facebook'da sizin yazınızı okudum. Ferman Kerimzade... Birden bire yıllar öncesine döndüm.

Merhum Abbas Zamanov'la mektuplaşıyordum (Prof.Bedirxan Ehmedov o mektupları arşivde görmüş). Daha 15-16 yaşındaydım.

Artvin Öğretmen okulunda okuyordum. Kiril alfabesini Iğdırlı edebiyat öğretmeni Zeynelabidin Makas yazıp bana vermişti.

Abbas Zamanov bana il postada iki kitap göndermişti. Birisi Feridun Bey Köçerli'nin "Azerbaycan Edebiyatı Meteryalları", ikincisi ise "Qarlı Aşırım" romanı...

Önce kitabı ben okudum. Okudukça bazı yerlerde ağladım. Çünkü biz o dönemlerde artık Sovyetler

Birliğindeki Türklerin büyük çoğunlukla ruslaştıklarını düşünüyorduk.

Kitap bittikten sonra her önüme gelene kitabı anlatıyordum. Okuldaki talebeler akşamları odalarda grup grup toplanıyor ve beni kitabı okumaya davet ediyorlardı. Onlar Kiril alfabesini bilmedikleri için ben okuyordum onlar dinliyorlardı. Hiç unutmam, Kerbelayı İsmail hamile gelinini götürüp düşmanına emanet olarak bıraktığı bölümü okuduğumda orada bulunan 20'ye yakın talebenin gözleri yaşla dolmuştu.

Aradan uzun zaman geçti. Almanya'dan Iğdır-Taşburun köyüne beni misafir götürdüler. Orda Kerbelayı İsmailin mezarını sordum, götürdüler. Yolun kenarında yoksul bir mezardı. Hemen bir yazı yazdım. Galiba 525-de çıkmıştı. İstanbul konsolusu ve Azerbaycandan bazı milletvekilleri gelerek mezarı güzelce yeniden yaptılar.

Demek istediğim şu ki... Sizin anlattığınız o dağınık saçlı, yüce ruhlu adam, yani Ferman Kerimzade uzaktan da olsa binlerce kilometre ötede biz gencecik talebelere namus, insanlık, kardeşlik ve bağımsızlık ruhu nedir anlatmış ve bizleri ruhlandırmıştı.

Yazıyı gözlerim dolarak okudum. Ellerine, yüreğine sağlık değerli kardeşim!

Ninonu görmək və sirr...

"Əli və Nino" romanını oxuyan bilir.

Romanın başlanğıcında Əli Xan Şirvanşir belə deyir:

"Nino hələ də dünyanın ən gözəl qızıydı..."

Əslində, biz Kölndən yola çıxarkən fikrimizdə Nino yox idi, amma Frankfurta çatan kimi Ninonun xəbərini aldıq. Builki Frankfurt kitab sərgisində açılış nitqini gürcü yazıçısı Nino Hartişvilli söyləmişdi. Bu Nino Bizim Əli Xanın aşiq olduğu Nino deyildi, amma onun yurdundan gəlmiş gənc bir xanımdı. Otuz beş yaşındakı bu gənc xanım on beşə yaxın roman yazmış və bir çox mükafatların sahibi olmuşdu.

Atalar demiş "niyyətin hara, mənzilin ora"... Biz Nino xanımın nitqinə yetişmədik. Amma yazıçı dostum Ələddin Dikərlə sərgidə sağa-sola gəzərkən Ninoya aşiq başqa bir alman dostumla qarşılaşdım. Qurban Səid heyranı və onun bütün əsərlərini toplayan, hətta bir qismini Almaniyada nəşr edən Hans Yürgen

Maurerlə qarşılaşdıqdan sonra onu heç buraxardımmı?! Onunla birlikdə əvvəlcə Azərbaycan bölümünə getdik. Orada Azərbaycanı təmsil edən dostumuz Aslan Cəfərovla məmləkətimiz üzərinə gözəl bir söhbət etdik. Aslan Cəfərov fəaliyyətlərindən, iclaslarından bəhs etdi və bizə bir neçə kitab hədiyyə etdi. Dost çox, söhbət gözəl, təəssüf ki, zaman az... Oradan ayrılan kimi sərginin qonaq ölkəsi Gürcüstan bölümünə getdik. Sadəcə Hans Yürgen deyil, doğrusu, biz də Ninonu axtarırdıq. Birdən ətrafımızda uzun, zərif, incə belli, ceyran gözlü gözəl gürcü qızlarını görüncə çaşıb qaldıq. Milli geyimlərində səhnəyə çıxıb Kartuli rəqsiylə hər kəsi məst etdilər... Hans Yürgenə: "Al, bu da sənə Ninolar, Nino, Nino deyə sayıqlayırdın", deyincə o da şirin bir gülümsəməylə üzümə baxdı.

Gürcüstana ayrılmış bölüm yarıqaranlıqdı və otuz üç otağa ayrılmışdı. Gürcülərə görə belə vacib günlərdə otuz üç qapı açılmalı, otuz üç çörək bişirilməli, otuz üç qayıq yola çıxmalı və otuz üç mahnı oxunmalı idi... Otuz üç mahnı dinləmədik, amma ətrafımızda "Chacha" içən nəşəli gürcü ədəbiyyatsevərlərini gördükcə biz də nəşələndik.

Bu il sərgiyə yüz on ölkədən tam yeddi min beş yüz nəşriyyatçı qatılmışdır. Azərbaycanın ən önəmli nəşriyyatçılarından olan dostumuz Şahbaz Xuduoğlu

ilə söhbətin dadında da "Əli və Nino" qoxusu vardı deyə bilərəm.

Hans Yürgenlə sərginin çıxışına qədər Əsəd Bəy, Nino, Azərbaycan ədəbiyyatı üzərinə söhbət etdik. Qurban Səid (Əsəd Bəy) ilə bağlı harada nə tapsa ardınca qaçan, ən kiçik qəzet xəbərini belə toplayan Hans Yürgün Maurer eyni zamanda, yorulmaz tədqiqatçı və nəşriyyatçıdır. İki kəs Azərbaycana getmiş, orada ədəbiyyat çevrəsi ilə tanış olmuş və Almaniyada alman oxucuları üçün möhtəşəm bir kitab nəşr etdirmişdir. Azərbaycan Tərcümə Mərkəzi ilə birlikdə hazırladığı "Das Geheimnis" (Sirr) adlı kitabı ayrılarkən bizə hədiyyə etdi. Çox gözəl bir üz qapağıyla içindəki dörd yüz səhifəlik kitabda ən tanınmış Azərbaycan yazıçılarının seçmə hekayələri almancaya tərcümə edilmişdi. Kitabın içində kimlər yox ki?! Cəlil Məmmədquluzadə, Mir Cəlal, İsa Hüseynov, Sabir Əhmədli, İsa Məlikzadə, Maqsud İbrahimov, Yusif Səmədoğlu, Sabir Azəri, Anar, Elçin, Mövlud Süleymanlı, Ramiz Rövşən, Kamal Abdulla, Rafiq Tağı, Saday Budaqlı, Afaq Məsud, Mübariz Cəfərli, Yaşar, Etimad Beşikçi, Orxan Fikrətoğlu, Cavid Zeynallı...

Kitaba ön sözü Almaniyanın tanınmış germanşünası professor Sieglende Hartman yazmışdır. Alman ortaçağ şairi Oswald von Wolkenstein tədqiqatçısı

olan xanım Hartman Bakı Slavyan Universiteti ilə bağlantısı olan bir elm adamıdır. Yeddi səhifəlik uzun ön söz yazısında Bakıdakı Ədəbiyyat Muzeyindən başlamış Azərbaycandakı ədəbi dəyişikliklərə qədər qısaca alman oxucusuna anlatmağa çalışmış, Yaşarın, Cavid Zeynallının, Rafiq Tağının, Kamal Abdullanın hekayələrindən önə çıxaraq, ədəbiyyatımızdakı yeni üslub axtarışı və dəyişimlərdən nümunələr vermişdir. Ön sözün sonunda isə belə yazır: "Bu kitabda müxtəlif mövzular işlənsə də, hər hekayədə insan həyatından parçalar vardır. Bu hekayələrin ayrıntılarında qərb insanıyla şərq insanının arasındakı fərqliliklər də ortaya çıxır. Bu fərqlilikləri ortaya çıxardan yazıçılara da təşəkkür borcumuz var. O yazıçıların əsərləriylə bizim üçün sirr olan bir dünyanın qapısı açılmaqda və Azərbaycan ədəbiyyatı yoluyla o dünyanı biz də tanımaqdayıq".

Hans Yürgenə bu əvəzolunmaz xidməti üçün təşəkkür etdim, o da sevindi. Dilimizi bilməməsinə rəğmən Bakıda "Leyli və Məcnun" operasını Azərbaycan türkcəsində izləyən bu Azərbaycan dostu Azərbaycanı bizim çoxumuzdan yaxşı tanıyır.

Günəş batarkən Frankfurtdan çıxdıq. Yorğun idik, amma kitabların qoxusu ilə bir başqa aləmdə idik...

Şeir qoxusu

Anam oxumaq, yazmaq bilmirdi. Bir dağ kəndində anadan olmuş, nənəsinin dizinin dibində laylalar, nağıllar və mahnılarla böyümüşdü. Ona görə də yaşlananda da ağzıdualı, könlü şeirli, nəğməli bir qadın idi. Mən məktəbə gedib hərfləri öyrənməyə başlayanda, yazdığım hər hərfi Quran ayəsi kimi oxşayar, qələm tutduğum balaca barmaqlarımdan öpərdi.

Gün gəldi, artıq sellər-sular kimi yazmağa və oxumağa başladım. Mən yazdıqca o, mənim nə yazdığıma baxmadan mahnılar oxuyar, şeirlər deyərdi. Sanki mənim gələcəkdə yazacağım kitablara toxum səpərdi. Həqiqətən də ən çox oxunan "Ayrılığın rəngi hüzün" kitabımı öz adımla yayınlasam da, anamın yazdığı kitab kimi oxuyuram. Digər kitablarımı da diqqətlə oxuyanda sətir altında anamdan izlər görürəm.

Bir gün bu şeir ruhlu qadının yanına bir dostumla gəldim. On altı yaşında idik. Orta məktəbdə oxuyurduq, utana-utana şeirlər yazırdıq. Yazdığım şeirləri həmin dostuma göstərər, fikrini öyrənərdim. Çünki dostum təkcə şeir yazmırdı, ədəbiyyatdan da

anlayırdı. Məktəbimizdə ibtidai sinifdə əruz vəznini bilən yeganə şagird o idi. Anam dostumun qarşısında oturdu, uzun-uzadı saçlarına, üzünə, gözlərinə baxdı və eynən belə dedi: “Oğlum, bu dostundan şeir qoxusu gəlir”.

Anama dostumun nə şeir yazdığını, nə də ədəbi bilgisindən bəhs etmişdim. Anam uzaqlara dalan kədərli baxışlarından, daraqsız saçlarından və titrəyən dodaqlarından şairi tanımışdı. O gündən mən də insanların saçlarına, gözlərindəki ifadəyə və dodaqlarındakı titrəyişə baxar oldum. Hətta şeir yazıb çap etdirməyən şair ruhlu insanları da belə tanıya bildim.

Azərbaycanda ilk dəfə təxminən 2007-ci ildə Yazıçılar Birliyinin qurultayında dağınıq saçlı, yanaqları qəmzəli, qaşları kədərlə sağa-sola boylanan, alnı qırışlı bir adam gördüm və heç tanımasam da, içimdə “Bu adam şairdir” dedim öz-özümə. Yanımdakı mərhum Tofiq Abdindən soruşdum, gülərək “Tanımırsan?” - deyə soruşdu. “Xeyr, ilk dəfə görürəm” - dedim. “Gözəl şairdir, adı Qəşəm Nəcəfzadədir” - dedi. Yazıçılar Birliyinin qapısının önündə tanış olduq. Qəşəm Nəcəfzadənin əl sıxışı, gülüşü də isti və şairanə idi.

Məni gənc yaşlı, uzun saçlı oğlu ilə tanış etdi, onun yazdıqlarından bəhs etdi. Almaniyaya qayıtdıqdan

sonra yaddaşımda o qurultaydan qalan bir neçə simadan biri də Qəşəm Nəcəfzadənin şair siması idi. Sonradan Tofiq Abdin mənə onun bir neçə şeirini göndərdi, yanılmamışdım. Şair qoxusu gələn adamın şeirləri də gözəl idi.

Aradan illər keçdi. Onunla daha heç bir yerdə qarşılaşmadıq. Bəzi insanlar əgər gözümdə və könlümdə yer ediblərsə, onları görməsəm də, axtarmasam da, hafizəmdə onlardan izlər daşıyır və arabir onların nə etdiklərini izləyirəm. Qəşəm Nəcəfzadə ilə də belə oldu. Bəzən şeirlərini oxuyur, xoşuma gələnləri Türkiyə türkcəsinə və alman dilinə çevirirdim.

Bir gün Kölndə burda doğulub böyüyən və türkcədən daha çox almanca danışan universitet tələbələrinə ana dilinin önəmi haqqında seminar keçirdim. Seminara qatılan qızlardan biri ədəbiyyatla maraqlanırmış. Mənə “Bir cümlə ilə şeir nədir desəm, tərifini necə edərsiniz?” - deyə sordu. Ani sualı qarşısında çaşdım, amma həmən özümü toparladım. Şeirlə bağlı bütün izahları kənara qoyub, anamın şeir haqqında dediyini təkrarladım: “Şeir bəzən bir gülüş, bəzən bir baxış, bəzən də ayrılıqdır”. Sözlərimin ardından o anda cibimdə olan və elə yenicə Türkiyə türkcəsinə çevirdiyim “Yadındamı?” şeirini çıxarıb oxudum:

Hatırında mı?
Senin küçücük bir masan vardı...
Üstünde çiçek gibi
Asabi, titrek ellerin...
Ellerinin yanında
Bir bardak soğumuş çay...

Çox diqqətlə dinlədilər və sualı verən qız gülərək mənim izahıma şeirdən ağlında qalan bir sözü də əlavə etdi: “Bəzən soyumuş bir fincan çay da şeir ola bilirmiş”.

Biz Azərbaycan türkləri başdan-başa şeirin içindəyik, xəbərimiz yox. Bu, qədimdən belə olub. İstanbula Təbrizdən, Gəncədən, Şirvandan şairlər gələndə Osmanlı şairləri onları qısqanır, hətta onların əleyhinə şeirlər yazardılar. Çünki bizim coğrafiyadan ora gedən söz ustaları sarayda baş üstündə tutulurdular. II Bəyazid dövründə (1492) yaşayan Məsihi məsləkli şair bu qısqanclığı belə dilə gətirmişdi:

Mesihi! Gökten insen sana yer yok.
Yürü var, gel Acem'den, ya Arap'tan.

İndi bəzi axmaqların bizə “Azəri” dedikləri kimi, o dövrdə də bizim coğrafiyadan İstanbula gedənlərə “Acem” deyirdilər. Bu cür örnəklər çoxdur. Yəni Füzulimizin maaşını gözü doymaz rüşvətxorlar

yesələr də, o maaşı kəsən Qanuni Sultan Süleyman idi.

Bu böyük şairlərin mirasçısı olan Qəşəm Nəcəfzadənin də şeirlərində özünə xas bir lirizm və incəlik var. Həyatdan qopmayan, hətta həyatın bəzən görünməyən üzünü gətirib gözlərimizin önünə sərən bir kamera var elə bil onun şeirlərində:

Əllərin bulud kimi
kölgə salır
saçlarımın işığına,
Deyəsən, yağış yağacaq
axşama,
xəbərin varmı, bilmirəm?

Onun hər bir şeirində, sanki çiskin yağan yağışların mülayimliyinin hiss olunma səbəbi şeirlərinə mütləq eşqi qoxlatmağıdır. Sosial şeirlərində belə, eşq qoxusundan sərxoş olmuş misraların zərifliyi gözə çarpır:

Yıxılmış evlər kimi
Yarpaqları qaldırın.
Yanan şamlar kimi
Tozları söndürməyin.

Əslində, hər şeyi söküb yıxmağı özünə borc bilən bəzi daş ürəklilərə yazılmış bu şeirdə yıxılan evlərin düşən

yarpaqlara bənzədilməsi və bir yarpağı yerdən qaldırmış kimi hər şeyin qaldırılmasındakı zərafət eşq qoxusu deyilsə, nədir? -

Ağac səslərini su kimi tökür,
Bir yarpaq səs qalıb əlimdə
Ağac ölüb-dirilir...

Doğrusu, Qəşəm Nəcəfzadənin həyatının keşməkeşlərindən xəbərim yoxdur. Yəni niyə Bakıya köçüb, nə zamandan bəri bu şəhərdə yaşayır və harda işləyir, bilmirəm. Amma onun şeirlərini oxuyanda çıxdığı şeir səyahətini addım-addım izləyə bilirəm. Bəlkə də öz kəndindən gətirdiyi ağacların, çiçəklərin, suların qoxusu, rəngi və ahəngi demək olar ki, bütün şeirlərinə yansıyıb.

Onunla keçən il, isti bir yay axşamında Bulvarda bir çayçıda görüşdük. Yanında üzü də şeir kimi duru və təmiz olan başqa bir şair də vardı: Nuranə Nur. Bir saatdan çox ədəbiyyatdan, sənətdən, şairdən, şeirdən və ürəyimi yaralayan qürbətdən söhbət elədik. Qəşəm bəyin hərdənbir şeir qoxulu barmaqları ilə çay dəmliyini tutub stəkanıma çay süzməsi hələ gözümün önündədir. Onların yanında özümü rahat və xoşbəxt hiss edirdim. Eynən kənddəki evimizdə, anamın dizləri dibindəki kimi... Və ona görə o qədər çox danışmışdım ki, sonra buna görə özümə hirslənmişdim.

Orxan Aras. "Avropada Azərbaycan…"

Nə zaman Köln küçələrində tək gəzirəmsə, anamı, şeiri və şair qoxulu insanları düşünsəm, mütləq ağlıma Qəşəm Nəcəfzadə gəlir. Və onun ürəyimi sərinlədən misraları:

Çağır,
Qırış fikirləri
Səslə ütülə.
Saçını qarışdır,
Adını soruş...
Bağla köynəyinin
Kimsəsizlik yeganəsi,
Açıq qalan düyməsini...
Köynəyin nəmini, tərini hürküt,
Orda donub qalan soyuğu kirit.
Aç gündəliyini,
Özünə oxşayan ikisinə bax,
Atası məktəbə gələn deyil,
Keçirt o uşağı, küçədən keçirt...

Bu gün bu saçları dağınıq, qaşları gülən, şeir qoxulu adam 60 yaşına qədəm qoyur. Onu uzaqdan olsa da bir yazı ilə salamlamaq, təbrik etmək və Əli Tüdə kimi demək gəldi içimdən:

Yetmiş də, səksən də, öndədir hələ
Ürək qocalmasın, yaşa nə var ki!..

Avropada Azərbaycan...

Bu yaxınlarda İnternetdə kəndimizin şəklini gördüm. Uzun torpaqlı yolun üzərində yarıyıxıq evlər... Tökülmüş palçıqlı suvaqdan başlarını çıxardan kərpic parçaları və çürüməyə başlamış qovaq ağacları ürəyimdə incə bir sızıltıya yol açdı. "Yolun sağ tərəfindəki ev Məhbub əminin evidir", dedim öz-özümə. Uzunboylu, mavigözlü, sarıbəniz, ağsaçlı bir adamdı. Beş qızı olduğundan oğul həsrətilə yanıb tutuşurdu. Bəlkə də, buna görə uzun ramazan gecələrində bizə danışdığı nağıllardakı padşah qızlarını özünə bənzəyən igid qəhrəmanlarla evləndirirdi. O nağıllarla bəlkə, heç bilmədən körpə ürəklərimizə eşqin, igidliyin, vəfanın toxumlarını əkirdi.

Bunları yada saldıqca qeyri-ixtiyari iki damla göz yaşım köynəyimin yaxasına süzüldü, içimdə, sanki bir vulkan oyandı. Bu yol, bu evlər, bu toz, bu torpaq və qürbətdə ürəyi həsrətlə yanıb qovrulmuş mən... Bu yollar kimi gördü əcəba? Kimlər keçdi buradan? Kimlərin ayaqları bu yollarda toz aldı?

Sol tərəfdəki ev Musa əminin evi idi. O qapının önündə çox gözləmişdim. Orada dostum Bəylər yaşayırdı. Qapıdan çıxarkən üzünə qonmuş saf uşaq

təbəssümü hələ də gözümdən getmir. Yox, yox, məqsədim kəndimizdən yazmaq deyil. Məqsədim vəfadan, insandan və bizim olan bir çinardan yazmaqdır. O çinar hər kitabında bizim yurddan bəhs edən Nizaməddin Onkdur.

Keçən həftə Şimali Almaniyanın gözəl şəhərlərindən olan Bilefelddən bir dəvət aldım. Bizim iğdırlı "Ayazi" təxəllüsüylə gözəl şeirlər yazan Ayaz Ərdəm adında səksən yaşlı şairimizin kitabının təqdimat mərasimi keçiriləcəkdi. Həm də artıq "hocaların hocası" olan ağsaqqalımız Nizaməddin Onkla da görüşəcəkdim. Şeirlərini hələ uşaqkən oxuduğum, Azərbaycan folkloru üçün Türkiyədə çox dəyərli kitablar, məqalələr çap etdirərək bizə sevdirən Nizaməddin Onku uzun illərdən bəri tanımağıma rəğmən çoxdandır görəmmirdim. Buna görə də bir az həyəcanlı idim.

Bilefeldlə Kölnün arası təxmini iki yüz kilometrdir. İki saatlıq yolçuluq müddətində fikrim hey Quzugüdəndə və İğdırdaydı. İğdır Türkiyədə Azərbaycanın, sanki kiçildilərək bir şəhərə sığışdırılmış halıdır. Küçələrdə Azərbaycan türkcəsinin şirin ləhcəsi duyular.

İğdırda yaşayarkən, daha doğrusu, məktəbə getdiyim illər orası biz uşaqlar üçün, sanki İstanbul idi. Halbuki tək əyləncəmiz kinoteatr idi, çox zaman pulsuzluqdan heç oraya da gedə bilmirdik. Bir az böyüdük, oxumaq, bilgilənmək nədir, ağır-ağır öyrənməyə başladıq. Elə o

zamanlar Nizaməddin Onk kimi "məchul" müəllimlər qarşımıza çıxmağa başladı, bizi Azərbaycanla, Türk dünyası ilə tanış edərək ürəyimizdəki sevgini dağa döndərdilər.

İğdır liseyinə yaxın küçədə bir kafe vardı. O kafenin liseydə müəllimlik edən Turqut Öcala aid olduğunu deyərdilər. Utana-utana oraya gedərdik. Kimlər gələrdi o kafeyə! İbrahim Bozyel! İğdırın simpatik, gülərüzlü, qızıl ürəkli vəkili və ya biz gənclərin diliylə İbrahim abisi... Teatrı, Hüseyn Cavidi o bizə sevdirmişdi. Ondan başqa, Zeynəlabdin Makas, din alimi mərhum Həmzə Göləli, Haqqməmməd kəndindən bir aşıq... Bizim kimi bir neçə ədəbiyyat sevdalısı orta məktəb şagirdləri kafenin qapıya yaxın bir küncündə oturar, ədəblə edilən söhbətlərə qulaq asardıq.

O kafedə nələr söylənərdi, söhbət mövzularını indi xatırlamıram. Amma orada danışılanlar şəlalə kimi ruhumuzu coşdurardı. Orada olmaqdan xoşbəxt olardıq, o kiçik çiyinlərimizlə adam olardıq, qarşıda yüksələn Ağrı dağına dönərdi ümidlərimiz...

Kafedə tez-tez Nizaməddin Onkdan bəhs olunardı. Onu, nədənsə, orada heç görməmişdim. Amma adı həmişə anılardı. Almaniyada yaşadığını söyləyərdilər. Tarix, İğdır, Azərbaycan mövzusu açılsa, onun adını çəkərdilər. 1970-ci illərdən bəri xalq ədəbiyyatı

haqqında yazılmış araşdırmaları əldən-ələ gəzərdi. Məsələn, Turqut Öcalın 1970-ci ildə qələmə aldığı "İğdır folkloru və etnoqrafiyası" elmi əsərilə özünü tanıdarkən, Nizaməddin Onk da 1971-ci ildə "İğdırda dini mərasimlər" adlı məqaləsilə dərgilərdə yer alırdı. Təbii ki, dövr internet dövrü deyildi. Bu cür məqalələr, araşdırmalar bizdən çox əvvəl yazılmışdı, belə ki, köhnə jurnalların səhifələrində idilər. Biz onları ancaq böyük qardaşlarımızın kitabxanalarından min xahiş-minnətlə alıb oxuya bilirdik.

Çox keçmədən eyni jurnalların birində ustadın nağıl tərtibi mövzusuna da əl atdığını gördüm. "Kəllə göz" adlı İğdır nağılını alıb "Qars eli" jurnalında çap etdirmişdi. Nağılı bilsəm də, sanki yeni nağıl kimi maraqla oxumuşdum. Amma onu hələ də görməmişdim.

O zamanlar sərhədlərin bağlı olduğu və həsrət duyduğumuz Azərbaycan bizim üçün Tanrı dağı kimi müqəddəs bir yer idi. Azərbaycan adı gəlincə, hansımız həyəcandan ağlamazdıq ki! Toylarda oxunan Şeyx Şamil şeiri hansı birimizi şimşək kimi atlara mindirib Arazın o biri tayına götürməzdi ki! Ah, bir kəs onu görüb Azərbaycanı onun dilindən eşitsəydik, Azərbaycanı görən gözlərinə biz də baxsaydıq deyə neçə dəfə heyifsilənmişdik! Amma o yoxdu. Harada olduğunu da bilmirdik.

Bax o sirli ölkəni, yəni Azərbaycanı zaman-zaman Turqut Öcaldan dinləyər, kimi zaman da Nizaməddin Onkun yazdığı məqalələrdən oxuyar və tanımağa çalışardıq.

Bir neçə il keçdikdən sonra mən Almaniyaya gəldim. Qürbətin kədərli bir günündə bir şeir kitabı əlimə keçdi. "Ümid damlaları". Üzərində Ağrı dağının rəsmi vardı. İçindəki şeirlərdə İğdırı, Azərbaycanı, eşqi oxudum. Kitab Nizaməddin Onkun idi. Şeir kitabından sonra daha bir kitabı çap olundu: "Göyçəli aşıq Ələsgər". Bu dədə aşığı hansı azərbaycanlı tanımaz ki! Hansı aşıq ruhlu bir insan aşıq Ələsgərdən bir misra bilməz ki! İğdır və ya Azərbaycanda aşiq olub yarına onun dililə xitab etməyən varmı əcaba?

"Səndən ayrı şad olmuram gülmürəm

Canımdan bezmişəm ölə bilmirəm

Nə müddətdi qulluğuna gəlmirəm

Bağışla, taqsırım səhv eyləmişəm".

Aşıq Ələsgər kitabından sonra Nizaməddin Onkun Almaniyanın Bilefeld şəhərində yaşadığını öyrənmişdim. 1990-cı il idi. Azərbaycanda müstəqillik hərəkatları başlamışdı. Sonradan "Azadlıq" meydanı adını alacaq o meydanda yüz minlərlə insan toplaşdıqca, biz də Avropada toplaşır, Azərbaycan

adıyla təşkilatlanırdıq. Abbas Bozyel, Məhmət İrmak, İsmayıl Nəfis, İlhan Alim, Gündüz Varol kimi dostlarla, sanki bir dövlət də biz qururduq Avropada. Elə həyəcanlı, elə ümidliydik ki! Fransadan, İsveçrədən, Hollandiyadan, Belçikadan Azərbaycan sevdalısı iğdırlılar səsimizə səs verir və dünyada ilk dəfə Avropa-Azərbaycan Federasiyası qurulurdu.

O həyəcanlı günlərdə dostum Məhmət İrmak məni yaşadığı şəhərə - Bilefeldə dəvət etdi. Bilefeld Almaniyanın şimal-şərqində üç yüz minlik nüfuzu olan qədim şəhərdir. Dağın yamacında qurulmuş bu yaşıl şəhərdə gəzərkən nəhayət, Nizaməddin Hoca ilə tanış oldum. Ortaboylu, əsmər, qaşları qalın, bığlı bir kişi idi. Simpatik və istiqanlıydı. Atam yaşındaydı, o da 1937-ci il doğumlu idi. İlk tanışlığımızda çox qısa söhbətimiz oldu. Utanaraq ona ilk kitabım "Azərbaycan davamız"ı hədiyyə etmişdim.

Sonralar yenə də Məhmət İrmak vasitəsilə Nizaməddin Onkla bir neçə dəfə görüşdük. Onu hər gördüyümdə İğdırı, Turqut hocanın o kafesini, orada İbrahim abini, Şeyx Həmzəni xatırlayır və gözlərim dolurdu. O görüşümdən sonra Nizaməddin Onkun dalbadal kitabları çap olundu. "İğdır və ətrafındakı erməni məzalimi", "Qafqaziyadan Anadoluya qədər İğdır tarixi", "Araz boyu saz şairləri", "İğdırın qurtuluşu", "Zəlimxan Yaqub", "Qaraqoyunlu 2000", Azər Turanın "Əzəl axır dünya - türkün dünyası".

Yenə Bilefeldə gedərkən durmadan yazan, tələbə yetişdirən bu dəyərli ustad ilə görüşümün həyəcanı yenidən ruhumu sarmış və məni kəndimə, uşaqlığımda getdiyim o ədəbiyyat dolu kafeyə gətirmişdi. Sanki Nizaməddin müəllimi görüncə hər şey yenidən geriyə dönəcək və mən sevdiyim insanlara yenidən qovuşacaqdım.

İki saatlıq yoldan sonra Bilefeldə vardığımda onu dərnəyin qapısında dimdik dayanarkən gördüyümdə gözlərimin önündə Məhbub əmi, İbrahim Bozyel, Turqut Öcal və digər iğdırlı dostlar canlandılar. Tez qaçıb əlindən öpdüm. Elə bil dünən ayrılmışıq kimi səmimiyyətlə məni qucaqladı. Bir neçə il əvvəl həyat yoldaşı vəfat etmişdi, könlü yaralı idi. "Necesen, ustad?" deyə soruşduğumda qırıq bir təbəssüm yayıldı dodaqlarına... Qalın qaşlarını çatıb göy üzünə baxdı. O, daha cavab vermədən nə dediyini başa düşmüşdüm. Əlini iki əlimin arasına alıb:"Daha çox kitablar yazacaqsan", - dedim. Sevindi. Bir qoca çinarla yan-yana dayandığım üçün mən də sevinirdim. İğdır, Ağrı dağı, Azərbaycan buradan çox-çox uzaqlardaydı, amma Nizaməddin Onklar var olduqca, o uzaqlar yaxınlaşır və yurdlarımızı Avropanın ortasına gətirirdi. Çünki belə ustadların nəfəsi, səsi, sözü, şeiri ocaq deməkdir, yuva deməkdir, vətən deməkdir...

İdeal Muğanna

İsa Muğannanı tanıyanlar, onun işıq saçan qapqara gözlərini, zərif üzündən ətrafa yayılan körpə saflığının təcəssümü olan üz ifadəsini mütləq xatırlayırlar.

Daha ilk görüşdə insanı sakitləşdirən, özünə doğru çəkən, bütün dərdlərini unutdurараq, adətən, onun ürəyinə boşluğun, gözəlliyin və yaxşılığın nəfəsini üfürən İsa Muğanna əslində, üsyankar bir ruha sahib idi. Onun əsərlərinin hamısında dil, estetika, fikir və bilginin xaricində başqaldırı da böyük yer tutmaqdadır. Hətta əsərlərinin mərkəz nöqtəsinin üsyan olduğunu da rahatlıqla söyləmək olar.

Dünyanın ilk başqaldırı romanlarından sayılan və 1688-ci ildə Londonda nəşr olunduğunda elə də diqqəti çəkməyən, amma sonradan adətən kultlaşan roman "Orunoko"nun mövzusu Jan Jak Russonun deyimiylə "soylu-vəhşi bir başqaldırıdır". Yazıçı Afra Ben "Orunoko" romanında bir xalqın başqa bir xalqa qarşı üsyanını bütün qanlılığı və şiddəti ilə işləyərək kəskin nifrətlərin, kəskin intiqam duyğularının qabarmasına yol açmışdır. Əslində, ədəbiyyatın sosial həyata və tarixə təsiri üçün bu da bir

leqal yoldur. Amma İsa Muğannanın əsərlərindəki başqaldırıda "Oroonoko"dakı başqaldırının əksinə, özünə və öz mədəniyyətinə xas insani, insanı yormayan, amma ruhuna səslənən, onu dirildən, yenidən canlandıran bir başqaldırı vardır. Bu başqaldırı bəzən bir musiqi səsiylədir, bəzən də tam yerində söylənən və hər kəsin qəlbinə bir qılınc kimi işləyən cümləylədir... Onun "Tütək səsi" əsərində Cümrünün səssizcə damın üzərinə çıxması və tütəyindəki melodiya ilə bütün kəndi başına toplaması kədərə, ölümə, haqsızlığa, yalnızlığa qarşı kəskin bir başqaldırıdır. Heç bir hərəkət, heç bir söz, heç bir güc Cümrünün çaldığı melodiya qədər yaşadığı kəndi ayağa qaldırmaz, insanları axın-axın başına toplayammazdı.

Eyni əsərdəki Tapdıq isə sazıyla, sözüylə deyil, hər kəsi tərk edərək yalnızlığı tərcihi ilə üsyanını, başqaldırışını ortaya qoymuşdur. Filmi izləyən və ya əsəri oxuyan hər kəs bu cür səhnələrdə İsa Muğannanın üsyanını apaçıq görməkdə və təqdir etməkdədir.

Onun "İdeal" başda olmaq üzrə bütün əsərlərində sadəcə insanı əzən, yox edən sistemlərə deyil, zamana, məkana və insanı yoran çevrəyə də başqaldırı vardır. "İdeal" romanında insana ilk oxunuşda çox qəribə gələn dəyişimlər, dönüşümlər, bəzən hətta sayıqlamalar kimi görünən anlaşılmaz sözlər, yeni anlamdırmalar zamana və məkana qarşı üsyandan başqa bir şey deyil. O, güclü düşüncə dünyasıyla qavramları başqalarının yorumları və

adlandırmasıyla deyil, özünün ortaya qoyduğu səs və sözlərlə söyləmək istəmişdir. Bizim üçün anlamsız kimi görünən bəzi sözlərin və izahların onun dünyasında çox yerində və dərin mənaları olduğu açıqdır.

Dil İsa Muğanna üçün bir ifadə vasitəsi deyil, yenidən yaratma gücüdür. Ünlü alman yazıçısı Tomas Mann 1933-cü ildə ölkəsini tərk edərək Amerikaya getdiyində: "Mənim gerçək ölkəm dilimdir" - demişdi. İsa Muğanna üçünsə dil Muğanlı kəndidir, Ağstafa, Qazaxdır, Azərbaycandır, hətta Altaylardakı Tanrı dağları, İstanbuldakı Sultan Əhməd məscididir. Onun dili bizim danışdığımız, yazdığımız dilin məhdudiyyətinə sığmayan və bizə sayıqlama kimi gələn əslində, bizim görəmmədiyimiz, sezə bilmədiyimiz başqa bir aləmi ifadə edən, geniş dünyaya sahib bir dildir. Bu dil "Ana" deyən, "Can" deyən, "Vətən" deyən bizim dilimizdir.

Dostoyevski Puşkin haqqında belə demişdi: "Puşkinin bütün əsərləri rus mənliyinə, rus mənliyinin mənəvi gücünə inancı ilə dolub-daşar. İnancın olduğu yerdə ümid var. Rus insanının gələcəyi qarşısında duyulan böyük ümid..."

Dostoyevskinin bəhs etdiyi böyük ümid İsa Muğannanın əsərlərində də həm Azərbaycan xalqı, həm böyük Türk dünyası, həm də bəşəriyyət üçün vardır. Çünki o, yalanlardan, ədalətsizliklərdən, savaşlardan qurtuluşun yolunu cəhalətdən qurtuluşla mümkün olacağına

inanmaqda və bunu da qəhrəmanı Nəsimiyə Əmir Teymur qarşısında söylətməkdədir. İsa Muğannaya görə hər dönəmdə ortaya çıxan ədalətsizliklərin, zülmlərin təməlində cəhalət vardır. Ədalətsiz güc cahil bir gücdür və sonunda məğlubiyyətə məhkumdur. Şeyx Fəzlullah sözlərdən qaçaraq rəqəmlərin cazibəsinə özünü qapdırdığında da bunu çox dərindən idrak etməkdədir:

- Ən böyük günah nədir, ey Şeyx? Savaş deyil, cinayət deyil, yalan deyil, alçaqlıq deyildir, bəs nədir axı?

- Nadanlıqdır!..

Nadanlığı yerə vuran, öz nəfsini sındıran, əvvəlcə özünü maarifləndirib sonra ətrafına işıq saçan hər insan İsa Muğannanın insanıdır və o, bəşəriyyətin xilaskarı olmağa namizəddir.

İsa Muğanna da Henrix Böll, Ernest Heminquey, Sven Hassel, Lev Tolstoy kimi böyük bir müharibəyə şahidlik etmiş və müharibənin kitabını yazmışdır. Muğannanı başqa yazıçılardan ayıran xüsusiyyəti müharibəyə gedənləri deyil, müharibənin özünü deyil, arxa cəbhədə qalanları yazmasıdır. Maksim Qorki deyirdi ki: “Sovetlər İttifaqındakı kişilər tariximizdən günümüzə qalmış qadınlara olan utanc borcunu ödəməlidirlər”. İsa Muğanna bu borcunu müharibə illərinin qadınlarını öz hekayələrində içdən ifadə edərək ödəmişdir. Çörəyi atasız övladının

boğazından iniltiylə udduran anaların ürək sözlərini sadəcə bu torpaqlarda yetişən, dünyanın ən şirin dili ilə danışan bir insan verə bilərdi. Bu insan İsa Muğannadır.
Mən İsa Muğannanı sadəcə üç kəs görə bildim. Hər görüşümdə içimdə tərifi olmayan duyğularla dolub-daşdım. Bu duyğular ana dilimizin sehri, tariximizin igidliyi və möhtəşəmliyi, ölkəmizin zənginliyi, xalqımızın yavaş-yavaş unutduğu ruh gözəlliyi idi. Bu səbəblə onunla danışarkən bütün bu duyğuları doya-doya yaşamaq üçün heç danışmazdım, elə hey onu dinləyərdim. Son görüşümüzdə İstanbulu yenidən görmək istədiyini demişdi. Heç tərəddüd etmədən: "Gedək!" - demişdim. Gülümsəyərək: "Çox yaşlandım, gedəmmərəm!" - demişdi. Həyat "kaş ki"lərin məzarlığıyla doludur, bilirəm. Amma yenə də kaş ki, onu bir uşaq kimi qucağımda yüksək minarələrin ən hündür yerinə çıxaraydım. Boğazda üzən gəmilərin rüzgarlarına qovuşduraydım. Eyyub Sultanda, Topqapıda, Misir çarşısında, Haliçdə, Üsküdarda ona tarixdən günümüzə Türkün şöhrətini əks etdirən mehtər marşları dinlədəydim. Kaş ki, edə biləydim bunları!

İndi siz bu sözləri dinləyərkən O, bir küncdə durub, özünəxas körpə təbəssümü ilə bizlərə baxır. Bəlkə yanımızda, bəlkə qarşımızda, bəlkə də üzərimizdə bir yerdədir. Eynilə "Tütək səsi"ndə qocanın Cümrü üçün söylədiyi kimi: "İndi o, öz aləmindədir".

Bundan əminəm...

Orxan Aras.

Zəlimxan ayrılığı

Məşhur türk elm adamı və şairi Ziya Gökalpın ölümündən iki il sonra (1926) Əsəd Bəy Berlində "Ədəbiyyat dünyası" qəzetində onun haqqında qısa bir məqalə yazıb.

O məqalə belə başlayır:

"Deyilənlər doğru isə, İslam Peyğəmbəri şairlər üçün cənnətdə ən nadir daşlarla bəzədilmiş bir köşk hazırlayır və şair öləndə də yetmiş min mələk ağ qanadlarının üzərinə o şairi alaraq cənnətdəki həmin köşkə aparır. Bilmirəm Şərqdə anladılan bu hekayə nə qədər doğrudur. Amma əgər bu hekayədə bir azca düzgünlük payı varsa, o cənnətdəki köşkə ən layiq olacaq şairlərdən biri, bir neçə il əvvəl vəfat edən şair Ziya Gökalpdır".

Mənim gözümdə Zəlimxan Yaqub da o köşkə gedəcək şairlərdən biridir. Onu çox uzun zamandan bəridir dilimizi ən gözəl tərənnüm edən şeirləri ilə tanıyırdım. Hətta həyat yoldaşım onunla əlaqədar atası Ömər və əmisi İsa Hüseynovla olan yaxınlıqları və xatirlərindən mənə tez-tez danışar, şeirlərindən oxuyardı. Amma onu ilk dəfə bir neçə il əvvəl

professor Səlahəddin Xəlilovun dəvətilə bir yeməkdə tanıdım. Sakit, gülər üzlü, xoş söhbət və səmimi bir insan idi. Hər ağzını açanda ağzından çıxan sözlər qafiyələşər və şeir halını alardı. Dili, xüsusilə xalqın danışdığı sadə və coşğulu ifadə tərzini bu qədər gözəl mənimsəyən və istifadə edən çox az insan tanıdım. O, yaşadığı kosmopolit Bakı şəhərinə öz rəngini, öz səsini və öz üslubunu gətirmişdi. Onun yalnız şeirlərində deyil, söhbətində də, doğulduğu torpaqların səsini, qoxusunu və melodiyasını eşitmək mümkündü. Əzbəri güclü idi və aşıq şeiri ənənəsini çox yaxşı bilirdi. Həm ənənələrdən süzülüb gələn minlərlə illik bir ozan tərbiyəsini bilmək, həm də müasir şeirdən xəbərdar olmaq hər şairə xas deyil. O, süni bir ədəbiyyat dilindən istifadə etməzdi. Xalqın dilini ədəbi dillə bütünləşdirmişdi. Bu səbəblə xalq tərəfindən şeirləri çox əzbərlənən və sevilən bir insan idi. Xalqına bağlıydı, vətənini dəli kimi sevərdi. Türk dünyası onun səsləndiyi əsas kütləydi. Iğdırlı tarixçi Nizamettin Onk onun yaxın dostu idi və bizə ilk dəfə Zəlimxan Yaqubdan bəhs edən və şeirlərini oxuyan Nizamettin Onkdu. 2003-ci ildə onun şeirlərini Ankarada nəşr etmişdi və o kitabdan birini də mənə göndərmişdi.

Zəlimxan Yaqub xəstələnəndə Almaniyaya müalicəyə gəlmişdi. Hanovverdə bir xəstəxanada yatırdı. Hanovver bizə 650 kilometr məsafədədir. Nizamettin

Onkdan telefon nömrəsini aldım və telefon açdım. Yanına gedəcəyimi söylədim. Qulaqlarıma çatan o şirin və mülayim səsini unutmaq mümkün deyil: "Nizaməddin yolun çox uzaq olduğunu söylədi, lütfən əziyyət çəkməyin" - dedi.

Yazdığı şeirlər tam 13 cilddir. Bu bir şair, bir yazar üçün böyük uğurdur. O gəldi, yaşadı, sözlərini söylədi və söz atına minib aramızdan ayrıldı. Özünün də dediyi kimi,

Sənindir, əkə bilmirəm,
Bir könül tikə bilmirəm.
Dərdini çəkə bilmirəm,
Gəl, şəklini çəkim, dünya...

O da gəlib gedənlər kimi gəldi, dünyanın şəklini çəkdi və getdi. Bizə də onun şeirlərində çəkdiyi şəkillərə baxaraq təsəlli almaq qaldı.

Nur içində yat, əziz şairim!

Ozan Arif və Azərbaycan

“Madımak toplayıb yesəm o anda,
Yola rəvan olsam eyni zamanda,
Bir gecə müsafir Azərbaycanda
Qalmadan ölürsəm, ona yanarım!”

Tələbəydim… Artvindən Qarsa, Qarsdan da Ərzuruma sürgün olunmuşdum. Dava-dalaşlar, işgəncələr, qorxular, qaçışlar ruhumu darmadağın etmişdi. Bir qohumun dəvətilə Manisanın Turqutlu qəsəbəsinə getdim. Orada da rahatlıq tapa bilmirdim. Çünki Türkiyənin hər yeri kimi, Turqutlu da qan və atəş içində idi. Orada da tez bir zamanda öz həmfikirlərimlə tanış oldum. Bunlardan biri də Yəhya Azəroğlu idi. Azəroğlu digər adıyla “Komando Əli” Turqutluda yaşayırdı. Nədənsə daha ilk gündən bir-birimizə isinmiş, qardaş kimi olmuşduq. Azəroğlu məndən yaşca böyük idi və mənim dəliqanlılığımı, həyəcanımı əngəlləyir, böyük qardaş kimi məni qoruyurdu.

Bir neçə gün sonra Ozan Arifin Kamalpaşaya gələcəyini eşidən kimi Azəroğlu ilə oraya getdik.

Kamalpaşa kinoteatrı ağzına qədər dolu idi. Ozan Arif səhnəyə çıxınca hamı həyəcandan coşdu və gənclər hər türküdən sonra milliyyətçi şüarlarla onu salamladılar. Orada Ozan elə bir şeir oxudu ki, o şeir məni alıb Türk dünyasına apardı:

Ayşə Fatma deyil məni ağladan,
Ağladan Turandır, bir başqa Vətən…

Bu uzun şeiri o gecə orada əzbərlədim və nə zaman Ozan yadıma düşsə, həmin an o şeiri içimdən oxumağa başlayardım.

Aradan bir neçə il keçdi, mən Almaniyaya gəldim. Ozanın da 12 sentyabr hadisələrindən sonra Almaniyaya gəldiyini eşitmişdim. Amma hansı şəhərdə olduğunu bilmirdim. Bir neçə tanışdan soruşduqdan sonra Frankfurtda olduğunu öyrənər-öyrənməz oraya getdim. Frankfurt dəmir yolu vağzalına yaxın bir yerdə ofisi vardı. Məni qırx illik dostu kimi qarşıladı. İlk sözü də Aşıq Ələsgər oldu. Onunla maraqlandığını söylədi.

“Məndə iki cildlik kitabı var” – deyincə çox sevindi. “Nə olar bir də gələndə gətir” – dedi. Bir müddət sonra



yenidən yanına getdim. Kitablar da əlimdə. Kitablara baxanda keyfi pozuldu. Çünki kitablar kiril əlifbasında yazılmışdı. “Dərd etməyin, Ozanım, mən sizə oxuyaram!” – dedim, sevindi. Şeirləri oxudum, səsimi yazdı. Hətta bir neçə şeirin misralarını o andaca təkrarladı, bir misranı unutmuram:

Qafil könül, bu nə yoldu tutubsan!

Orxan Aras. "Avropada Azərbaycan…"

Bu misranı bir neçə dəfə təkrar etdi və başını salladı. O gün bir kağıza kiril hərflərini yazıb qoydum ki, kitabın bir cildini oxuya bilsin. Ağ ikicildli kitabın biri onda qaldı, biri məndə.

1990-cı il 20 yanvar tarixində Bakıda rusların törətdiyi qətliamdan sonra yenə Ozanı ən öndə gördük. Brüsseldə dirəyə dırmanaraq, o ünlü şeirini oxuması hamımızı ağlatmışdı. Brüssel mitinqindən sonra dəyərli abim Sabir Rüstəmxanlı ilə onu görməyə getdik. Türk dünyasından, ədəbiyyatdan, şeirdən danışdıq. Sabir bəy də ona bir şeirini oxudu. Siqaretini yandırıb gözlərini uzağa dikdi. Onun könlündəki dünyanın hara olduğunu mən bilirdim. Ozan harada bir türk varsa, orası üçün darıxır, nə zaman türkcə bir söz eşitsə, o sözü çörək kimi öpüb alnına qoyurdu.

Onunla bir dəfə də yenə Frankfurt dəmir yolu vağzalı yaxınlığındakı bir kafedə görüşmüşdük. O kafeyə sıx-sıx gedərdi. Orada yenə Azərbaycanın ozanlarından və şairlərindən danışmışdıq. Azərbaycan insanına və ədəbiyyatına heyran idi. Ölkəni təbliğ edən bir çox insanı təltifləndirən Azərbaycan təəssüf ki, ən gözəl Qarabağ şeirini yazmış bu Ozana biganə qaldı.

Bu sabah Ozan Arifin vəfat xəbərini duyunca evdəki kitabxanama tərəf qaçdım. Aşıq Ələsgərin məndə qalmış kiçik ağ kitabını tapdım və üzünü oxşadım.

Sonra bir səhifəsini açdım. Gözümə ilk dəyən şeir "Qaldı ki, qaldı" şeiri idi və sanki Ustad Ələsgər Ozan Arif üçün bir mesaj göndərmişdi:

Ələsgər dönmədi öz ilqarından
Biri xilaf deyil yüz ilqarından
Sazından, sözündən, düz ilqarından
Ellərdə söhbəti qaldı ki, qaldı…

Əlbəttə ki, Ozanımızın sazı, sözü əbədiyyən türk ellərində yaşayacaq inşallah…

Ruhu şad olsun!

Azərbaycan Türkiyəyə az kömək

Azərbaycan Türkiyəyə az kömək etməyib Anadolu bizimdir. Yəni, bütün türklərindir. Zatən hansı türk dara düşsə, sığındığı yer Anadolu olub. Sadəcə, türklər deyil, bütün qonşu məzlum xalqlar (ləzgi, gürcü, çərkəz, alban, bosniyalı və sair) da nə zaman zülm görsə üzünü Anadoluya tutub. Anadolunun harasına getsəniz Krım türklərindən Əfqanıstan türklərinə, Azərbaycan türklərindən Kazan türklərinə qədər hər bölgənin türkü ilə qarşılaşa bilərsiniz. Yəni, Anadolu Türküstanın açıq bir qucağı kimi hər gələni bağrına basıb. Təbii ki, bu da səbəbsiz deyil. Anadolu nə zaman dara düşübsə, Türküstan türkləri ya Anadolu uğrunda savaşıb, ya da maddi kömək kimi əlindən gələni əsirgəməyib. Anadolu daxili və xarici düşmənlərlə müharibə edərkən ən çox güvəndiyi şərqi türklər olub. Hindistan, Buxara, Daşkənd, Xivədən gələn yardımlarla yanaşı, Azərbaycandan Anadoluya göndərilən maddi kömək də az miqdarda olmayıb. Müstəqillik savaşı özü ilə bərabər qarışıqlıq, acı və yoxsulluq da gətirir. Belə vaxtda insanın ilk yüyürdüyü qapı təbii ki, qardaş qapısıdır. Bizim hamımız (xüsusilə Anadolu türkləri) Osmanlı türklərinin

Azərbaycana etdiyi yardımları yaxşı bilsələr də Azərbaycanın Türkiyəyə etdiklərini bilmirlər. Halbuki Azərbaycanda milli hökumət yıxıldıqdan sonra belə, Azərbaycan Türkiyəyə yardımını davam etdirir. Kommunist olmasına baxmayaraq yazılarından, məktublarından və o vaxtın şahidlərindən (bu qəzetdə xatirələrindən bir hissəsini dərc etdiyiniz Rza Nur kimi) öyrəndiyimizə görə, eyni zamanda yaxşı bir türk oğlu olan Nəriman Nərimanov bütün təzyiqlərə baxmayaraq, Anadolu və Atatürklə əlaqəsini kəsməyib və hər yardım istənildikdə onların köməyinə çatıb. Atatürkün 3 may 1920-ci ildə Şərq ordusu komandiri, general Kazım Qarabəkirə göndərdiyi məktubda baxın nə yazır: "Dövlətin pulu qalmadı. İndiki halda heç bir yerdən kömək istəməyə ümid də yoxdur. Başqa çıxış yolu tapana qədər Azərbaycan hökumətindən borc almağınızı rica edirəm". Kazım Qarabəkir Atatürkün xahişini birbaşa Nəriman Nərimanova çatdırır. Nərimanov 19 avqust 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinə bir məktub göndərir. Məktubda deyilir: "Müsəlman kommunistlər sizin istəyinizə çatmağınız üçün bütün gücləri ilə yanınızda olacaqlar. Siz məğlub olduğunuz təqdirdə nə sizin üçün, nə də digər Şərq xalqları üçün qurtuluş yolu qalmayacaq". (Doğan Avçıoğlu "Milli qurtuluş tarixi", 2-ci cild, səhifə 430). Bu məktubu alandan sonra Atatürk Bakıya bir səfir göndərir. Diplomat olmaqla yanaşı, yaxşı bir yazıçı olan səfir Məhmət

Şövkət Esendal Bakıya çatdıqdan sonra Azərbaycan da ilk səfirini - İbrahim Əbilovu Ankaraya göndərir. İ.Əbilovun 1921-ci ilin oktyabr ayında Ankaraya gəlməsi böyük bir sevincə səbəb olur. Səfirlik binasını Atatürk açır və öz əlləri ilə Azərbaycan bayrağını yüksəldir. Anadoluda qazanılan 1-ci və 2-ci İnönü savaşlarından sonra Azərbaycanın xarici işlər naziri Mirzə Davud Hüseynov Ankaraya teleqram vurur. Teleqramda deyilir: "Qazanılan bu böyük zəfər münasibətilə türk xalqını Azərbaycan Sovet Sosialist Respublikası adından təbrik edirik!" Bu teleqramın ardınca Azərbaycanın göndərdiyi yardım Anadoluya çatır. Bu yardım 30 sistern neft, 2 sistern benzin, 8 sistern kerosindən ibarət idi. Yardımların arası kəsilmir. Çox keçmir ki, 62 sistern neft göndərilir. Türk səfiri 1921-ci ilin 17 martında Atatürkün N.Nərimanova yazdığı məktubu öz əlləri ilə ona təqdim edir. Məktubda Atatürk borc pul istəyir. Nərimanovun Atatürkə yazdığı məktub gözləri yaşardacaq qədər səmimidir. Nərimanov belə yazır: "Cənab general, bizim türk millətində qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşın əlindən tutar. Biz qardaşıq və hər zaman əlinizdən tutacağıq" (A.Şəmsəddinov "Qurtuluş savaşı illərində Türkiyə-Sovet İttifaqı əlaqələri", səhifə 66). Azərbaycan hökuməti çox keçmir ki, 500 kiloqram qızılı Türkiyəyə göndərir. Qardaş köməyi bununla bitmir. Nərimanov Rusiyadan aldığı 10 milyon qızıl rublu da Türkiyəyə

ünvanlayır. 23 mart 1921-ci ildə isə Türkiyənin xəbəri olmadan bu ölkəyə Azərbaycan hökuməti hədiyyə kimi 30 sistern neft, 2 sistern benzin, 8 sistern yağ göndərir. İstiqlal şairimiz Məhmət Akifin də dediyi kimi, Allah bu millətə yeni bir istiqlal savaşı yaşatmasın! İstiqlal savaşı hər bir millətin ölüm-qalım mücadiləsidir. Ölümlə imtahana çəkilmək bir millət üçün heç də asan deyil. Amma bir millətin yaşaması üçün hər zaman ölümə hazır oğulların yetişməsi lazımdır. Harda yaşayırsa-yaşasın türk milləti belə oğulları hər zaman yetişdirib və gələcəkdə də yetişdirəcək. Zəruri qeyd: Türkiyə-Ermənistan münasibətində istiləşmə dövrü başladığından "525-ci qəzet"dən götürülərək adını dəyişdirdiyimiz bu yazının növbəti dəfə dərcini lazım bildik.

Məhəmməd Əsəd Bəy haqqında maraqlı bir sənəd

Məhəmməd Əsəd Bəy haqqında dünyada müxtəlif tədqiqatçılar tərəfindən aparılan araşdırmalar davam edir.

Onun əsərlərinə qısqanclıqla yanaşanlar və müxtəlif bəhanələrlə onu alçaltmağa və yazdıqlarını inkar etməyə çalışanların ən böyük iddialarından biri də onun türkcə bilməməsidir.

Məsələn, onun haqqında uzun bir məqalə yazan amerikalı tədqiqatçı Valter Laqueur, "Neft Şahzadəsi" adlı məqaləsində bunları yazır:

"O, 17 və ya 18 yaşlarında müsəlmanlığı seçmiş və Berlin Universitetinin "Şərq seminarlarında" fars, ərəb və Bakı küçələrində bir az türkcə öyrənmişdir.

Walter Laqueurun xaricində də Əsəd bəy türkcə bilməzdi deyən araşdırmaçılar çoxdur. Əsəd Bəylə əlaqədar 1932-ci il tarixli Yaş Türküstan adlı bir məcmuədə məşhur türk jurnalisti və yazıçısı Nadir Nadinin yazdığı bir məqalədən bəhs edilmişdi. Bu günə qədər o məqaləni tapmaq mümkün olmadı. Amma Türkiyədə Cümhuriyyət qəzeti arxivində apardığım araşdırmada məqalənin 26.11.1932-ci ildə Cümhuriyyət qəzetində baş məqalə olaraq

nəşr olunduğunu gördüm. Bu gün oxucularımıza bu məqaləni Azərbaycan türkcəsində axtararaq vermək istəyirəm. Baxın Nadir Nadi Əsəd Bəy haqqında nələr yazıb.

Rusiyadakı türklər haqqında bir konfrans

Nadir Nadi 26 Teşrinisani 1932 (26.11.1932)

“Vyana Mədəniyyət Birliyi” buranın fikir sahəsinə hakim olan ən qüvvətli bir təşkilatdır. Bu cəmiyyət hər həftə tərtib etdiyi konfranslarla xalqa Avropanın tanınmış elm, sənət, siyasət adamlarını dinləmək imkanını təmin edir. Bu yaxınlarda Kayyonun konfransından bəhs etmişdim.

Əvvəlki axşam vyanalılar eyni kürsüdə çox qiymətli bir türk mühərririni alqışladılar. Əsəd Bəy adında azərbaycanlı bir irqdaşımız “Bugünkü Rusiyanın Ruhu” mövzulu bir konfrans verdi.

Əsəd Bəy Berlində tanınmış bir mühərrir və jurnalistdir. Hələ çox gənc olduğu halda indidən bir

Orxan Aras.

neçə dənə mühüm kitab nəşr etmişdir. Bunlardan Stalinin həyatı və Məhəmmədin tərcümeyi-halı çox bəyənilmişdir. Əsəd Bəyin bu son əsərində yeni və canlı iddialar var. Ona nəzərən bu böyük Peyğəmbər, bir din müəssisi olmaqdan çox, bir dövlət müəssisidir. Çünki o qısa bir zamanda, zamanının və mühitinin içində olduğu qarışıqlığa baxmayaraq böyük bir dövlət qurmağa müvəffəq olmuşdur.

Əsəd Bəy əslən bakılıdır. Atası Bakının ən zəngin neft menbalarına sahibmiş.

Rus qiyamından vəziyyətləri pozulmuş, Əsəd Bəy İran, oradan Türküstana keçməyə məcbur olmuş. Bir müddət Qafqazda yaşamış, sonra Tiflisdə, Trabzonda, İstanbulda olmuşdur. İndi on ildən bəri Berlində imiş. Bu izahatı konfrans münasibəti ilə Əsəd Bəy haqqında intişar edən bir məqalədə gördüm və bir türk olan bu qiymətli elm adam ilə görüşməyi faydalı gördüm. Rusiyada milyonlarla türk var.

Bunların indiki ictimai vəziyyəti, rejimə qarşı olan əlaqələri haqqında Esat Beyin verəcəyi məlumat şübhəsiz mühüm olacaqdı. Esat Bəylə bu gün görüşdüm. Çox nazik bir adam. Səhvsiz türkcə danışır. İstanbulda az yaşamış olmasına baxmayaraq şivəsi İstanbul şivəsinə yaxın. Özü şəxsən bolşevikliyin əleyhinədir. Lakin hər elm adamı kimi hadisələrin tamamilə bitərəf bir nəzərlə görür. Mənə

Rusiyadakı irqdaşlarımızın vəziyyəti haqqında bu məlumatı verdi:

“- Rusiyada otuz milyon türk vardır. Bunlar bu böyük məmləkətin içində bir-birlərindən ayrı böyük cəmiyyətlər halında yaşayırlar. Böyük türk cəmiyyətləri bütün Rusiya kimi bolşevik rejimin daxilində respublikalar halındadır. Türk respublikalarının ən mühümləri bunlardır: Azərbaycan, Özbəkistan, Tacikistan, Qazaxıstan, Tatarıstan, Krım.

Bunlardan başqa Volqa sahillərində olan Şimal Türkləri kimi müstəqil bir idarəyə malik olmadan yaşayan irqdaşlarımız da vardır. Müxtəlif türk respublikalarının Rusiyada işğal etdikləri sahələr məmləkətin ən zəngin torpaqlarını ehtiva etməkdədir: Bakı dünyanın ən mühüm neft menbalarından biridir. Türküstan dəhşətli pambıq yetişdirən bir məmləkətdir. Bununla belə Rusiyada türklər hər zaman rus idarəsi tərəfindən əzilmişlər. Bu, xüsusilə çar zamanında çox faciəvi bir şəkildə idi. Türk kəndlisi çox münbit torpaqlara sahib olduğu halda daima pulsuz və cahildi. Sovetlər, mədəniyyət etibari ilə türklere çox kömək etmiş, milyonlarla türkü cəhalətdən qurtarmışlar. Bakı kimi, Kazan kimi böyük şəhərlərdə darülfünunlar (universitetlər) açılmışdır. Hemin hər kənddə məktəb vardır. Ərəb hərfləri qaldırılmış, yerinə oxunması daha praktik və daha asan olan rus hərfləri qoyulmuşdur. Qadınlar çarşaflarını atmışlar. Bütün

bunlar mədəniyyət etibarilə böyük hizmətlərdir. Lakin Rusiya türkləri Sovet rejimini mənimsəmiş deyildilər. Çünki bu rejim sənaye-proletariat əsaslarına söykənir, halbuki türklər başdan aşağı kəndlidirlər. Amələnin mənfəətinə xidmət edən bolşeviklik kəndliyə laqeyd qalır.

Əsasən mənə qalsa, Rusiyada kəndlinin lehinə olaraq tədabir alınmadığı təqdirdə bugünkü əmələ səltənəti günün birində yerini şübhəsiz kəndliyə tərk edəcək. Yalnız türklərin deyil, məmləkət əhalisinin yüzdə səksən beşinin kəndli olduğunu unutmamaq lazımdır. Rusiya türkləri Anadolu türklərinə qardaş məhəbbətilə bağlıdırlar. Damarlarında eyni qan gəzən insanların mənən bir-birlərindən ayrılmalarına imkan varmıdır? Lakin təəssüf ki, arzu edilən həqiqi təmas təmin edilə bilmir. Demokrat məmləkətlərdə çıxan qəzetlərin Rusiyaya buraxılmadığını bilirsiniz. Bu, Rusiya türklərinin çox sevdikləri Anadolu ilə ictimai münasibət təmin etmələrinə mane olur. Maamafih münasibətdə bulunmamaq qardaş ürəkləri heç bir zaman bir-birindən ayıra bilməz.

Rusiyadakı türk torpaqları məmləkətin həyatı etibarilə birinci dərəcədə əhəmiyyətə malikdirlər. 1918-də hərbin bitməsinə iki ay qalmış Nuri Paşanın idarəsindəki ordu, bolşevikləri məğlub edərək Azərbaycanı almışdı. O zaman müstəqil bir Azərbaycan Respublikası təşkil edildi. Sülh tərəfdarı olan ingilislər də buna qarşı çıxmadılar. Bu müstəqil

respublika iki il yaşadı. Rusiya Bakı petrollarından məhrum qalmışdı. Bu iki il ərzində rus sənayesi, demək olar ki, iflicə uğradı. Heç bir şey edə bilmirdi. 1919-da ingilislərin himayədarlığı qaldırmaları üzündən bolşeviklər təkrar gəldilər və Azərbaycanı öz rejimlərinə asılı bir respublika hökumətinə təhvil verdilər. İndi bütün Rusiya türkləri Sovet rejimi ilə idarə edilməkdədirlər. Bu rejimin mədəniyyət etibarilə türklərə etdiyi xidmət, məqsəd nə olursa olsun, heç bir zaman inkar edilə bilməz.

“Oxumaq öyrənən bir adam düşünür deməkdir.
Düşünən adam hər zaman azaddır”.

Bir dostun ardından...

Fevral ayı aylar içində ən qısa ay və qış mövsümünün bahara doğru gedən yolunda son dayanacağı... Bəlkə də buna görə həmişə fırtınalı, yorucu keçir.

Anam da fevral ayını sevməzdi. Fevral gələndə: "kiçik çillə girdi, artıq qış özünü göstərəcək" - deyərdi. Bir il əvvəl 17 fevralda vəfat etdi. Qar yolları bağladı, külək, fırtına yolumuzu kəsdi, dəfninə yetişə bilmədim.

İki il əvvəl əziz dostum Tofiq Abdin də fevralın 24-də vəfat etdi.

Bu il fevral ayı yenə dostlarımızın ürəyinə yas olaraq düşdü. Dostum Rəşad Məcidin atası da fevral günlərinin birində torpağa verildi. Şair Cahit Sıtkı Tarancı dediyi kimi:

Həyata birlikdə başladığımız,
Dostlarla da yollar ayrıldı bir-bir;
Getdikcə artır yalnızlığımız...

Artan təklik, ölümlərlə gələn ağrılar və dünyanın

faniliyi hamımızın başında... Muhiddin Ərəbi demiş, "Qaçıb can qurtarmağa yer yoxdur!". Tək çarə xatirələrin qoynunda təsəlli axtarmaq və həyatın fərqli məkanlarında yeni ümidlərə doğru getmək...

Tanıdığım ən ümidli və gülərüz insanlardan biri şair Vaqif Məmmədovdu. Uzun boylu, yaraşıqlı, xoşsöhbət və ürəyi insanlıq, türklük sevgisi ilə dolu bu dostumu da vəfasız fevral ayında itirdik. Keçən il Bakıdan İğdıra getdiyimdə məni Naxçıvan hava limanında qarşılayıb, bütün gün yanımdan ayrılmamışdı. Naxçıvan Universitetindəki kiçik, amma duyğu və kitab dolu otağında məni rahatlamaq üçün əlindən gələni etmişdi.
Onunla qiyabən tanış idik, birgə dostlarımız var idi. Naxçıvana gedən dostlar mütləq ona uğrayar, ondan kömək alardılar. 67 yaşında, amma gənc bir ürəyin sahibi idi. Türkiyədən gələnlərə səmimi bir sevgisi vardı. Oradan Naxçıvana gələn tələbələrin Vaqif müəllimi, Vaqif abisiydi. İğdırda dostlarımla söhbət etdiyimdə tez-tez onun adı keçərdi. Şeirləri də gözəl idi. Hələ lirik şeirlərindəki təzəlik və dərin hisslər oxuyanı duyğulandırırdı. Mikayıl Müşfiqin "Yenə o bağ olaydı" şeirinə yazdığı nəzirəsi isə sadə və duyğu doludur:

O bağ... düşünmədin qalacaq sənsiz,
Əncir ağacları solacaq sənsiz,
Gözlərim həmişə dolacaq sənsiz.
Saçımda bir az da çoxalacaq dən,
Dənizi tək goyub hara gedirsən?

Səmimi, saf və təmiz adamların sözləri də gözəldir. 18-ci əsrdə yaşamış Ərzurumlu İbrahim Hakkı "Mərifətnamə" adlı əsərində yazır: "İnsanın duyğu və düşüncələri üzündə görünər". Bəzən çox gözəl görkəmi olan bir insan insana xoş gəlməz. Uşaqlar və heyvanlar bunu tez hiss edərlər. Baxarsınız həmişə gülər üzlü olan bir adamdan belə uşaq və ya heyvan qorxar, geri çəkilər.

Vaqif Məmmədovun gözəl ürəyi və ürəyindəki gözəl sözlər sanki üzünə əks etmişdi. Gülümsərkən ürəkdən güldüyünü, danışarkən ürəkdən danışdığını dərhal anlardım. Dostlarımdan erkən öləni olunca, sonradan "Niyə ona daha çox vaxt ayırammadım" deyə həmişə kədərlənirəm. Bu dostlarımdan biri də o idi. İğdıra bir an əvvəl getmək üçün Naxçıvanda həmişə tələsərdim. Bir an əvvəl doğulduğum, böyüdüyüm torpaqlara keçmək istərdim. Bu səbəblə onunla da, təəssüf ki, uzun vaxt keçirə bilmədim. Amma Naxçıvan Universiteti müəllimlərindən gənc dostum Elbrus İsayevlə birlikdə Vaqif Məmmədovu da götürüb

onların "Söyüdlü restoran" dedikləri, həqiqətən də söyüd ağacları ilə bəzədilmiş gözəl bir yerə getdik. Orda iki saata qədər şeirdən, şairlərdən, insanlardan, ölkəmizdən və dərdlərimizdən danışdıq. Səsi, gözləri və rəngi o qədər canlı və rəngli idi ki, onun bir il sonra birdən xəstələnib vəfat edəcəyini haradan bilərdim?

Yeməkdən sonra xahiş etdim, iki şeir oxudu. Şeir oxuyarkən, gənc bir şair kimi utancaqdı. Səsi ilə ağzından çıxan sözlər bir musiqi məqamı kimi uyğun idi. O şeirlərdən bir qitə hələ də yadımdadır:

Tutub zirvələri bir soyuq təklik,
Duman dərələrə çökür, nədənsə.
Xınalı qayanı tapmayan kəklik,
Bu gün qar üstündə çəkir, nədənsə.

Əziz dostum, təəssüf ki, özünün həyat qayasını tapa bilmədi və qar üstündə bir kəklik kimi çəkib getdi. Elə bir şeirində dediyi kimi...

Kişnəyən atları minib gediblər,
Şam kimi əriyib, sönüb gediblər ,

Şirin xatirəyə dönüb gediblər,
Sən görən kişilər gedibdi daha...

Bütün ölənlərimizlə birlikdə, onun da ruhu şad olsun!

Sabir Rüstəmxanlının 70 yaşına

Qəzetlərdən Sabir Rüstəmxanlının 70 yaşına girdiyini oxuduğumda ağlıma Nihat Bəhramın bir sözü gəldi.

Nihat Bəhram: "Biz yaşlanırız, dağlar yaşlanır, amma böyük şairlər əsla yaşlanmazlar" - yazmışdı... O, böyük şairlərin niyə yaşlanmadığını da açıqlamışdı: "Böyük şairlər yanar dağdırlar və püskürdükləri vulkanlar atəş olaraq yerlərə saçılsa da bir zaman sonra gül tumurcuqları olaraq geri gəlirlər".

Sabir Rüstəmxanlını 1990-cı ilin ən qanlı-puslu günlərində tanıdım. İnsanların çoxu susmuşdu, çoxu qorxmuşdu, çoxu küsmüşdü, o, danışırdı! Hər kəs ölümünə qaramsardı, bitkindi, o, bir bozqurd kimi diri və ümidliydi... Hər kəs qələmini diqqətli, o isə qələmini sanki yırtıcının köksünə saplanmış bir mizraq kimi işlədirdi. Onun yanar dağ səsi, onun lava püskürüb gül tumurcuğu gətirən şeirləri 1990-cı ilin qaranlıq günlərində hilalın önündəki beş guşəli parlaq ulduz kimiydi.

Orxan Aras. "Avropada Azərbaycan…"

Onunla həm Azərbaycanda, həm də Avropada uzun yolçuluqlara çıxdıq... Azərbaycanın dağlarını, dərələrini, göllərini onun gözləriylə tanıdım. Gəncəyə doğru gedərkən ürəyimdə toplanmış babamın da yetmiş illik həsrətiylə bir uşaq kimi ağladım və o, səssizcə hıçqırıqlarımı dinlədi. Avropanın soyuq, amma sakit və düzgün yollarını onunla birlikdə aşdıq. Qürbətin içində dərdləriylə boğuşan türklərin vətən sevgilərini, Azərbaycana duyduqları həsrətin türkülərini bərabər dinlədik. Yollarda bərabər türkülər söylədik, vətənimizlə bağlı ümidlər səsləndirdik. Bəzən hüzünləndik, bəzən güldük...

O, Almaniyaya ilk gəldiyində 46 yaşındaymış... Qapqara, qıvırcıq və uzun saçlı gəncəcik bir adam... İndi bu sətirləri yazarkən o vaxt çəkdirdiyimiz şəkillərə baxıram. Birisində geniş bir türk şalvarı geyinib, şeir oxuyur. O, harada şeir oxumadı ki? Berlində kommunist türklərin divarlara yapışdırdığı Stalin şəkillərinin olduğu salonlarda “Sağ ol, Ana dilim" kitabından oxuduğu şeirlər necə də həyəcanlandırmışdı hər kəsi!

1990-cı ildə Almaniyaya gəldiyində mənə nələr gətirməmişdi ki... Kitablar, balıq kürüsü, içkilər... Bir karton dolusu içki mənim kiçik iş otağımda günlərcə durmuşdu. İçində kitab var sanırdım. Sən demə, çeşid-çeşid içkilərmiş. Mənim içki içmədiyimi öyrənincə bir şey söyləməmiş, tam iki həftə "içki

orucu" tutmuşdu. O, günlərin birində artıq dayanammadı və mənə dönüb: "Soyuq pivə sifariş edərsənmi?" - deyə rica etdi. Alman ofisianta bir alkoqolsuz pivə gətirməsini söylədim. Ofisiant pivəni gətirdi. Sabir bəy pivəni içdikdən sonra: "Pivə çox gözəl, sərindi, amma bunun dadı yoxdur ki..." - dedi. Bu xatirəni hər yada saldığımızda çox gülürük.

Söhbətlərimizdə hər zaman vətən vardı. Hey dilimiz, mədəniyyətimiz, insanlarımız üzərinə söhbət edirdik. O, getdiyi Tanrı dağlarından, Ötükən ovasından bəhs edərkən içimi qısqanclıq hissləri doldururdu. Orhun çayında necə üzdüyündən danışanda xəyalımda mən də onunla birlikdə o çayda üzərdim. Yardımlının yaylalarında böyüyən bu şairin ruhunda Altayların rüzgarı vardı. O rüzgardı onu coşduran və bu qədər cəsur edən...

Tanış olduğumuz 1990-dan 1992-yə qədər ikimizin də ruhunda hey savaş vardı. İçimizlə savaş, düşmənlə savaş və çətinliklərlə savaş... O, Azərbaycanı kəndbəkənd, şəhərbəşəhər gəzərkən, mən də Avropanın hər şəhərində qurduğumuz Azərbaycan Türkləri Federasiyası üçün yollara düşür, mitinqlər düzənləyir, almanca, fransızca, ingiliscə bildirilərlə Azərbaycanın mesajlarını dünyaya çatdırmağa çalışırdım. O günləri xatırladıqca enerjimizə, dirənişimizə hələ də heyrət edirəm. Çünki hələ tələbə idim və böyük bir gəlirim də yox idi. Amma

Sabir bəy kimi cəsur və ümidli insanlarla imkansızlıqları bacarmağa and içmişdik və bacarırdıq da. Frankfurt, Köln, Berlin, Den Haag, Paris, Vyana, Stuttgart, Nürnberg kimi Avropanın ən böyük və tanınmış şəhərlərində Azərbaycan dərnəkləri qurmuşduq və minlərcə könüllü insan hər çağırışımızda yanımıza qaçır, mitinqlərimizə qatılırdı.

O çətinliklər, o qaçhaqaçlar, o əməklər boşa getmədi. İki il sonra ikimizin də röyaları gerçək oldu və onun Türk və Altayların gülü, çiçəyi qoxan şeirləri ilə Azərbaycanın igid övladlarının cəsarəti birləşdi və Azərbaycan müstəqilliyini qanıyla qazandı. O istiqlalın isbatı bəyannamənin altında da Sabirin qələminin izi vardı.

Parisdə 1789-cu il Fransız Çevrilişi üçün bir güllə atanın belə, bir yerlərdə ismi və ya heykəli vardır. Amma qələmiylə, şeiriylə, cəsarətiylə Azərbaycanın müstəqilliyinə imza atan Sabir Rüstəmxanlının Azərbaycanda bir heykəli yoxdur. Amma onun heykəli Asiyanın ən uzaq və soyuq guşəsindən Avropanın ən soyuq bölgəsinə qədər bütün türklərin ürəyində vardır.

Sabir Rüstəmxanlı 70 yaşında!

Kültigin, Kürşad, Orhun irmağı, xəbəriniz olsun! Şair hələ də dəliqanlı çağındadır.

Kutlu olsun 70-i!

Behrudinin duyğular aləmi və mənalar dünyası

Nə zaman Behrudidən bir şeir oxusam, nədənsə "Şamandan, Turandan" daha çox, suriyalı üsyankar şair Əbul Ala əl Maarri yadıma düşür.

Doğrudur, Behrudi də əl Maarri kimi həyata, düzənə, yalnızlığa, insanlara və dünyaya qarşı üsyan edən şeirlər yazıb. Amma bundan başqa, zaman və məkan fərqinə baxmayaraq, bu iki şair arasında bir duyğu bağı olduğuna da inanıram. Bu inancımı Behrudinin şeirlərini almancaya tərcümə edən dostum Karl Hermann da dilə gətirincə düşüncələrimdə yanılmadığıma bir daha əmin oldum.

Əl Maarri Rüstəm Behrudidən tam 1016 yıl öncə (973) bugünkü Suriyanın Hələbə yaxın bir qəsəbəsində dünyaya gəlib. Dörd yaşında çiçək xəstəliyindən gözləri kor olub. Kor olmasına rəğmən, həm atasından, həm də Hələb, Şam və Bağdadda yaşayan o dönəmin ən önəmli müəllimlərindən mükəmməl bir təhsil alıb. 1007-ci ildə anası vəfat edincə təkrar ata-baba yurduna dönüb. O gündən sonra yazacağı

əsərlərində çox fərqli bir yöntəmlə bilgi, əxlaq, maddə, ruh, Allah, məkan, siyasət və sosial həyat mövzusunda özünəməxsus fikirlərlə adını tanıdıb. Bəzi şeirlərində ümidsizlik, bəzi şeirlərində üsyan, bəzilərində isə qaçış meyli var. Amma bütün sənətkarlara xas yalnızlıq duyğusu onun şeirlərində daha bəlirgindir:

Kəndi fəryadımdır ancaq səs verən

fəryadıma!

Kimsələr yox aşinadan,

yardan hali diyar…

Əl Maarridə görünən bu yalnızlıq duyğusu Behrudinin şeirlərində də çox bəlirgindir. Hər misrasına sinən yalnızlıq duyğusu onu məclis, dost və cəmiyyətin içindən alaraq fərqli bir məkana götürür:

Bu qosqoca şəhərdə, ruhum,

Heç kim bizimtək tək deyil.

Təklik, yalnızlıq Behrudinin şeirlərində, əl Maarridə olduğu kimi, qaçış meylindən daha çox bir üsyandır. O, qorxduğu, bezdiyi, ümidsizliyə qapıldığı üçün qaçmaz. O, üsyan etdiyi üçün qaçar. Çünki qaçışın məğlubiyyəti də bərabərində gətirdiyini bilir. Ona görə də yalnızlıq duyğusunun ardından belə deyər:

İblis-mələk davasıdı

Davamız bitəcək deyil.

Əlbəttə ki, “yaxşı və pis” davasının qaçışla bitməyəcəyini bilir Behrudi və ona görə də hər dönəmdə cəsurca özünü meydana atar. Meydan onun üçün bəzən bir hayqırış məkanıdır, bəzən də bir dar ağacı:

Mən hara ayaq basdım,

Gördüm orda qəm-yasdı.

Dar ağacıyam – asdım

Mən özümü özümdən.

Behrudidə dünyaya və həyata bağlılıqdan daha çox, həyatın məhkumiyyətinə və dünyanın zalımlığına üsyan var. Onun şeirlərində ilk oxunuşda həyatdan qopuqluq görülsə də, o, əslində həyatın içində fərqli bir həyatın arzusundadır. Əl Maarri isə həyat mövzusunda çox şikayətçidir və o biri aləmlə vüsalın həsrəti içindədir:

Çox sürdü bu aləmdə qonaqlıq,

Tam zamanı artıq mütləq bir vüsalın…

Behrudidə isə o biri aləm, axirətdən daha çox, bu aləmdəki arzuladığı bir yerdir. Bu səbəblə "namərdlərdən" bezdiyində belə üsyan edər:

Yolçu sərxoş, yol başına

Ruhum vaxtdı, dur ayağa;

Çəkib gedək, gücümüz yox

Onsuz da adam olmağa.

“Adam olmaq” Behrudi üçün bir millət, məmləkət davasıdır. Ona görə insanlar gündəlik alışqanlıqlardan qurtulub adam olduqlarında vətən daha çox yaşana bilən bir yer olacaq. Onun bütün çırpınış və hayqırtılarında “adam olmağa” vurğu var.

Behrudinin Əl Marri ilə digər ortaq yanı onun da insan və insan xarakteri mövzusunda mükəmməlliyətçi olmasıdır. Əl Maarri zamanında gördüyü yaltaq, yalançı, əxlaqsız və mənfəət düşgünü insanları şeirində yerdən-yerə vurarkən zalım hökmdarları da unutmaz:

Behrudi də “Halım məmləkətin halı” şeirində ətrafındakı insanlar və düzənlə barışmadığını çox açıq bir şəkildə ifadə edər:

Sən hər şeylə barışdın,

Mən hələ də savaşda.

Halım məmləkətin halı, Şahin…

Behrudinin şeirləri almanca çıxanda bir neçə alman ədəbiyyatsevər dostum onun bir sufi şair olub-olmadığını soruşdu. Bu dostlar tərcümələrdən İslam və Hind sufilərini oxuyublar və bu mövzuda bilgiləri olan insanlardır. Onlara cavab verərkən bir ara "bəli" deməkdə tərəddüd etdim. Çünki Behrudidə nə qədər sufi anlayış və ifadələr olsa da, onda eşqə tam təslimiyyət yoxdur. Bu üzdən dostlarıma almanca "Jajin" kəlməsi ilə qarşılıq vermək məcburiyyətində qaldım. Bu söz "hə və yox"un qarışığı bir sözdür. Həm "bəli", həm də "xeyr" deməkdir. Çünki Behrudidə həm;

Həyat nə ki, öyəsən,

Ruha bədən geyəsən?

Ən gözəl şey, ah, bilsən,

Heç əzəldən olmamaq.

kimi yoxluğu işarət edən sözlər olmasına rəğmən, eşqə tam təslimiyyət də var:

Gözümü yoldan yığım,

Dönüm bir sözə sığım.

Ən böyük azadlığım

Sənin əsirin olmaq.

Eşqdə əsarət, eşqin varlığında yoxluq bütün böyük sufilərin sözlərində vardır. Mövlana da məşuqun yanında nə var, nə də yox olduğunu söylər. Amma Behrudidəki yoxluq eşqdə yox olmaq deyil, eşqlə birlikdə var olmaqdır. Yəni həm bir sufi inanışı vardır onun fikirlərində, həm də dünyəvi bir arzu. O, şeirlərində bu "sirli aləm" ilə dünyəvi, gerçək ailəmi bir arada görmə istəyini önə çıxarır:

Yüz tilsimə baş vurdum,

Qayıdıb səndə durdum.

Bu "olumla" nə buldum?

Olmamaqdı bu olmaq.

Hər sənətkara baxış əslində o sənətkarın gerçək varlığını və əsərlərindəki fikirlərinin mahiyyətini çözmək mənası daşımaz. Hər insan öz ifadələriylə o sənətkara baxar və özünəxas kəlmələrlə onu tərif edər. Mən Behrudinin şeirlərini oxuyarkən onun iç

dünyasından mənə doğma fikirlər çıxartmağa çalışdım. Təbii ki, anlayış və düşüncə fərqlilikləri şeirləri fərqli şəkildə anlamağa yol açar. İngilis şair Eliot: “Hər kəlmə şeirin digər kəlmələrinə anlam qazandırır” – deyərkən o anlamları da hər oxuyanın özünə görə yorumlayacağını bildirir. Behrudi bu mövzuda çox yönlü, zəngin bir dilə və mənalar dünyasına sahib olan bir şairdir. Onda Nəsimidən də, Xətaidən də, Şəmsi Təbrizidən də izlər görmək mümkündür. Çünki qidalandığı aləm onların böyük mənalar dünyasıdır və bu səbəblə Şair özünəməxsus sirrlərlə doludur:

Sirrimi açıb demə,

Girsəm də cəhənnəmə.

Son istəyim; qəm yemə,

Açılmaz sirrin olmaq.

Sirli şeirlərin şairi Behrudi dostum, altmış ildən sonrakı sirli aləmə olan yolçuluğun xoşbəxtlik və sağlıqla dolsun!

Bir türk mücahidi: İbrahim Bozyel

Bəstəboylu, arıq, əsmər üzlü, canlı baxışlı, çalışqan bir insan olan İbrahim Bozyel vaxtilə Türkiyənin ucqar bölgələrindən birində - İqdırda yaşayıb yaratsa da, könlü, fikirləri, işləri və müraciət etdiyi sahələr baxımından bütün türk dünyasına aid bir insan idi. Yazının başlığında dediyim kimi bir ədəbiyyatçı, bir hüquqçu, bir işgüzar insan olması ilə yanaşı, heyrət ediləcək enerjisi, səbri və fədakarlığı ilə tam bir mücahid idi. Türkiyənin İqdır kimi ən yoxsul şəhərlərinin birində vəkillik etsə də, türk dünyasının müxtəlif bölgələrindən dəvət etdiyi aydınları (Türkiyəni tanıtmaq və bir əsrə yaxın davam etmiş ayrılıqdan doğan həsrəti bitirmək baxımından) Türkiyənin müxtəlif bölgələrinə və Şimali Kiprə öz xərci hesabına səyahətə aparması, ailəsini ikinci plana keçirərək bütün imkanlarını bu yolda səfərbər etməsi onun mücahidliyinin ən bariz nümunələrindəndir. Hələ 1982-ci ildə Yavuz Akpinar kimi akademiklərlə ələlə verərək Türkiyə və türk dünyası üçün həqiqətən bir ilk sayılan "Qardaş ədəbiyyatlar" adlı dərginin ən ağır yükünü çiyinlərindən daşıması onun fikirləri və inancları məsələsində nə qədər işgüzar və fədakar olduğunu göstərməsi baxımından çox önəmlidir. İbrahim Bozyel 1952-ci ildə anadan olub. Türkiyədə 1950-ci illərdə doğulmuş insanların əksəriyyəti II Dünya müharibəsindən sonra ortaya çıxmış bir az demokratik, bir az üsyankar, bir az da hər şeyə şübhə ilə yanaşan fikirlərdən çox təsirlənibiər. İbrahim

Bozyelin də xarakterində bu izləri bariz şəkildə görmək mümkün idi. İqdır kimi mühafizəkar bir şəhərdə modernliyi təmsil edən insanlardan biri də İbrahim Bozyel idi. O, həyatı, davranışı və fikirləri ilə Türkiyəni irəli aparmağa çalışanlardan idi. Şübhəsiz ki, bu məsələdə İstanbul Qabadaş Litseyi və İstanbul hüquq fakültəsini bitirməsinin böyük rolu olub. Onun 1970-80-ci illərin İqdırında və ya Türkiyəsində fərqli işlər görməsi bəzən yaddan çıxsa da, əksəriyyət tərəfindən bu hansısa şəkildə təqdir edilirdi. Qurduğu əlaqələr, cəmiyyətin hər təbəqəsinə yönələn çalışmalar ona bəzən "solçu" damğası vurulmasına səbəb olsa da, sağçıların ən milliyyətçi gənclərinin məhkəmə proseslərində vəkillik etməsi də (əksəriyyət vaxt haqq tələb etmədən) "o bir sağçıdır" ittihamlarına məruz qalmasına yol açırdı.

Əslində o ideologiyaların əsri olmayacaq qədər hərəkətli və hər şeyə şübhə ilə yanaşan bir xarakterə sahib idi. Hüquqşünas olmasına baxmayaraq, İqdır litseyində düz 17 il fəlsəfədən dərs deməsi də bunun bir örnəyi idi. Bir hüquqşünas kimi məhkəmədən-məhkəməyə qaçan bu yorulmaz insanı İqdırın müxtəlif kafelərində bəzən bir din alimi ilə, bəzən öyrənməyə həvəsli fəlsəfə fakültəsinin bir tələbəsi ilə mübahisə etdiyini görə bilərdiniz. Kafeni mübahisə və müzakirə məkanı halına gətirənlərdən sadəcə biri deyildi, birincisi idi İbrahim Bozyel. Xalq mədəniyyətinə həm heyran idi, həm də onu bir mütəxəssis səviyyəsində bilir və öyrədirdi. İqdırda ilk dəfə folklor qrupunu İbrahim Bozyel yaratmışdı. Bu qrup sonralar Fransada keçirilən xalq oyunları yarışmasında birinci olmuş və o vaxtın baş naziri Turqut Özal tərəfindən

Ankarada qəbul edilərək mükafatlandırılmışdı. İbrahim Bozyelin şifahi xalq ədəbiyyatı sahəsində çalışmaları sadəcə rəqs qrupu yaratmaqla və idarə etməklə məhdudlaşmırdı. İqdır və ətraf bölgələrin aşıqları, nağılçıları, şifahi xalq ədəbiyyatı biliciləri onun ən yaxın dostları idilər. İqdırda ilk teatr çalışmalarını da o başlatmışdı.

Heç bir teatr təhsili almamış insanlarla elə bir qrup yaratmışdı ki, onlar Azərbaycana gedəndə ən professional aktyorlar belə bu xalq içindən çıxmış aktyorların oyununa heyran qalmışdılar. Teatrın ssenarisi, idarə olunması, kostyum seçimi məsələlərini İbrahim Bozyel şəxsən özü həll edirdi. Hələ də yaddaşlardan silinməyən "Evimizə gəlin gəlir" və 1990-cı ilin 20 Yanvar faciəsinə həsr olunmuş "Qərənfillər ağlamasın" tamaşaları onun nə qədər usta bir ssenari yazarı olduğunu sübut edir. İqdırda Bakıdakı 20 Yanvar qətliamına etiraz əlaməti olaraq ilk mitinqi təşkil edən, bu şəhərdə ilk Azərbaycan dərnəyini quran da İbrahim Bozyel idi. Türkiyədə hələ Novruz bayramı müzakirələri başlamamışdan çox əvvəl o, bu bayramın özəlliklərini çox gözəl şəkildə anladan bir məqalə yazmışdı. "İqdır, Naxçıvan və Təbriz üçbucağında Novruz adət-ənənələri" adlı məqalə bir xalq mədəniyyəti mütəxəssisini qısqandıracaq qədər usta şəkildə yazılmışdı. 1982-ci ildə türk dünyası ədəbiyyatı nümunələrini və bu sahədəki xəbərləri üç aydan bir türk oxucusuna çatdıran kasıb, amma çox təsirli "Qardaş ədəbiyyatlar" dərgisi çıxmamışdan çox-çox əvvəllər İbrahim Bozyel İqdırda türk dünyası ədəbiyyatının ən gözəl bilicilərindən və təbliğatçılarından idi. Çolpan, Abay,

Çokay, Mehdi Hüseyn, Şəhriyar, Səhənd, Səməd Behrəngi, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Nəriman Həsənzadə, Məmməd Araz və Məmməd Aslan kimi şair və yazçıların adları onun söhbətlərində tez-tez yer alırdı. 1984-cü ildə dostu Məmməd Aslanın dəvəti ilə Azərbaycana getməsi onun üçün bir dönüş nöqtəsi olmuşdu. O, səfər zamanı gördükləri və eşitdikləri barəsində "Azərbaycan diyarından" adlı bir kitab yazmışdı. Bu kitab məncə Türkiyə türkcəsində Azərbaycan barəsində yazılmış ən gözəl, ən məlumatlı, ən səmimi əsərlərdən biridir. O kitabda Azərbaycanın sadə insanından təbiətinə, şeirindən xalq əfsanələrinə qədər hər şey səmimi bir şəkildə verilib. İbrahim Bozyel sadəcə fikir adamı deyildi, o eyni zamanda işgüzar bir vətəndaş idi. Ermənilərin İqdırda törətdikləri maddi və mənəvi qətliamları Türkiyənin gündəminə çıxaranlardan biri də İbrahim Bozyel idi. Bu üzdən bir ayağı Ankarada, bir ayağı Avropada olurdu. Heç bir simpozium və toplantı İbrahim Bozyelsiz keçirilməzdi. "Erməni kültür terroru" onun Cəfər Qiyasi ilə birlikdə yazdığı əsər idi. Bu əsər çox böyük səs-küyə səbəb olmuşdu. Əsərdə indi Ermənistan ərazisi kimi bilinən ərazilərdə yer adlarının necə dəyişdirildiyi və ermənilər tərəfindən necə saxta bir tarix yaradıldığı sənədlərlə ortaya qoyulmuşdu. Onun iş görmək bacarığının digər bir göstəricisi də erməni qətliamlarının ən çox yaşandığı və bu hadisənin şahidlərinin hələ də yaşadığı İqdırda bir "Erməni qətliamı anıtı" abidəsinin qoyulması sahəsində göstərdiyi cəsarət və fədakarlıqdır. İqdırın simvolu halına gələn və Ermənistandan aydın şəkildə görünən abidənin ideya müəlliflərindən biri də İbrahim

Bozyel olmuşdu. 1988-ci ildə 46 yaşında avtomobil qəzasında həlak olan İbrahim Bozyel kimi dincəlmək bilməyən igid bir fikir adamının fəaliyyəti nəticəsində İqdır və Türkiyənin böyük bir hissəsi Azərbaycanı, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini yaxından tanıdı. Hətta İbrahim bəyin ölümündən sonra belə İqdır bu məsələlərin mərkəzinə çevrildi. 1999-cu ildə İqdırda dünyanın ən öndə gələn Erix Fayql, Ramazan Mirzəoğlu, Cəfər Qiyasi, Cavad Başaran, İsmayıl Hacıyev, Stefano Trinçhes, Erdal İltər, Ənvər Konukçu, Məhmət Saray və Əzmi Süslü kimi fikir adamlarının iştirakı ilə erməni məsələsinə həsr olunmuş möhtəşəm simpozium keçirildi. İbrahim Bozyel paytaxtı İqdır olmaq şərtilə gah İstanbulda, gah Amsterdamda, gah Frankfurtda yorulmadan, şikayət etmədən, Azərbaycanı, türk dünyasını, türkün insanını, mədəniyyətini anlatdı. Hər belə səfərdən sonra qınına çəkilərək yoruldum demədi. Ətrafına toplaşan gənclərə sadəcə bir fikir adamı deyil, eyni zamanda bir mücahid, bir könül dostu olduğunu göstərdi. Amma türk dünyası və xüsusilə də hər zaman vurğunluqla bəhs etdiyi Azərbaycan İbrahim bəyə hələ də lazım olan ilgini göstərə bilmədi, ona olan borcunu ödəmədi. Azərbaycan üçün heç bir iş görməyən insanlar, mükafat aldığı, tərifləndiyi halda İbrahim Bozyelin adı belə çəkilmədi. Onu sadəcə Azərbaycan deyil, canından çox sevdiyi azərbaycanlı dostları belə nədənsə çox çətin xatırlayırlar. Amma onun kiçik addımlarla İqdırda başladığı hərəkat yetişdirdiyi adsız gənclərin fikirlərində gün keçdikcə daha da təzələnəcək və inkişaf edəcək. Bu da yalançı şöhrətlərin, səmimiyyətsiz dostluqların, saxta

vətənpərvərliklərin bir gün mütləq yerlə-yeksan olacağını, ancaq həqiqi mücahidlərin əsla ölməyəcəklərini göstərir.

Müsahibə

Məmməd Əsəd bəyin arxivindən tapılan bu məqalələr "Əli və Nino"nun əsl müəllifini ortaya çıxarır

Senet.az F.ü.f.d.,dos. Şəmil Sadiqin yazıçı Orxan Arasla müsahibəsini təqdim edir:

Orxan Aras bəylə uzun müddət olmasa da, sağlam bir dostluğumuz var. Mənimlə Orxan bəyi onun və mənim dəyərli elmi rəhbərimiz akademik İsa Həbibəyli tanış etmişdi. İmzasını eşidəndə isə artıq çoxdan tanıdığımı dedim. Azərbaycan oxucusu üçün tanış olan bu imzanı İsa Muğannaya olan münasibətindən və yazılarından mən də yaxşı tanıyıram. Hələ sonralar yadıma düşdü ki, rəhmətlik ustad Orxan Aras haqqında bir neçə dəfə söhbət etmişdi. İki önəmli

şəxsiyyətin-Xalq Yazıçısı İsa Muğannanın və akademik İsa Həbibəylinin dəyər verdiyi bir şəxsiyyət mənim üçün də çox dəyərli birinə çevrildi.

Türkiyədə boya başa çatan və hazırda Almanyada yaşayan Orxan Aras "Azərbaycan Davamız" "Xoş gördük Gözəl Yurdum", "Qarabağın Gözyaşları" kimi kitabların da müəlləifidir. O hem Alman Yazıçıları, hem de Türkiyə Yazıçılar Birliyinin üzvüdür . Onun Məmməd Əsəd bəy (Biz daha çox Qurban Səid kimi tanıyırıq) haqqında araştırma apardığını çoxdan bilsəm də, son vaxtlar 525-ci qəzetdə yazdığı yazılardan daha yaxından bələd olmuşdum. Çoxdandır Bakıda olsa da, vaxt tapıb görüşə bilmirdik. Axır ki bir çay içmə imkanımız oldu. Əslində, xüsusi müsahibə üçün görüşmürdük. Sadəcə dərdləşməyə ehtiyac duymuşduq. Amma əvvəlki görüşlərimizdə uzun-uzadı ədəbiyyatdan danışdığımızı xatırlayınca səsimizin yazılmasını təklif etdim. Bu dəfə də söhbətimiz maraqlı alındı. Səsimizin yazılması məni həmsöhbətdən müsahibə götürən birinə çevirdi. Məmməd Əsəd bəy haqqında bütün dünya ədəbiyyatında olduğu kimi bizdə də fərqli fikirlər var. Lakin Orxan Aras bəyin araşdırması bugünkü Azərbaycan Ədəbiyyatşünaslığı üçün çox dəyərli bir material olacağına əminəm. Məhz bunu nəzərə

alaraq dissertasiyını olduğu kimi çap eləməyi də planlaşdırdıq. Bu dissertasiyda Məmməd Əsədbəyin 50-dən çox məqalə ilk dəfə dilimizə çevrilib. Dissertasiyanın ikinci böyük əhəmiyyəti ondan ibarətdir ki, bəlkə də Azərbaycan ədəbiyyatında yazılan son elmi işlərdən heç biri bu qədər ciddi işlənməmişdir. Çünki Orxan bəy dissertasiya işində Almaniyadan, Alman kitabxanalarından Azərbaycan ədəbiyyatına baxıb, Azərbaycandan yox. Bunun üçün də həm özüm, həm də ədəbiyyatşünaslar üçün yeni informasiya almaq naminə bütün söhbəti Məmməd Əsəd bəyin mövzusu üzərində qurduq.

– Orxan bəy, Azərbaycana xoş gəlmisiniz. Bilirik ki, Almanyada Əsəd bəy haqqında araştırmalar aparırsınız… Onun almanca məqalələrini də tərcümə etdiyinizi yazmışdınız. İndi durum nə yerdədir?

– Düşünürəm ki, bu mövzu nəinki Azərbaycan üçün, ümumilikdə bütün Qafqaz üçün mühüm bir mövzudur. Çünki Avropada, dünyada Qafqaz dedikdə ilk olaraq ağıla gürcülər, ermənilər gəlir. Ancaq burada tarix boyu baş rolda Azərbaycan xalqı olub. Azərbaycanlıların da ənənəsini, tarixən başlarına gələn müsibətləri Əsəb bəy qələmə alıb. Belə demək mümkündürsə, bir az da qabarıq şəkildə yazıb.

–Neçə illərdir ki, bu tədqiqatla məşğul olursunuz. Dünyada olduğu kimi, bizdə də "Əli və Nino"nun

müəllifinin Qurban Səid, Məhəmməd Əsəd bəy və ya Yusif Vəzir Çəmənzəminli olması mübahisə mövzusudur. Almaniyada yaşayırsınız. Bu da o deməkdir ki, tədqiqat materiallarına əliniz bizdən daha yaxşı çatır, dil problemi yaşamırsınız. Bir sözlə, bizdən bir neçə addım öndəsiniz. Bizim təqdiqatçılardan fərqli nələrsə əldə edə bilmisinizmi?

– İlk olaraq Məhəmməd Əsəd bəyin publisistikasını araşdırmağa başladım. Çünki dünyanın hər bir yerində, hətta Gürcüstanda belə Əsəd bəyi özünküləşdirmək istəyənlər var. Ona görə də, bütün bu mübahisələrdən kənarda qalmağı seçdim. Tədqiqatçıların Əsəd bəy haqqında çoxlu məqalələri var. Mənə isə maraqlı idi ki, onun özü nə yazıb? Berlindəki Azad Universitetinin arxivində Əsəd bəyin yazdığı "Ədəbiyyat dünyası" qəzetində yer alan məqalələrinin kataloqu var. Burada 1926-1933-cü illəri əhatə edən məqalələri toplanılıb. Bu əlyazmaları universitetdən kənara çıxarmağa icazə verilmir. Üstünə ləkə düşər deyə onun surətini də çıxarmaq olmaz. Hər gün ora gedib, qəzetləri vərəqləyirdim ki, Əsəd bəyin yazılarını tapım. Oxuduqca görürdüm ki, araşdırmaçıların bir çoxunun bu məqalələrdən xəbərləri yoxdur. Onlar öz tədqiqat işlərini həmin arxivlərə baxmadan aparıblar. Əsəd bəyin 1926-1930-ci illərdə yazdığı məqalələrdə "Əli və Nino" əsərinin xülasəsi var. Bilirsiniz ki, "Əli və Nino" əsəri 1936-

1937-ci illərdə yazılıb. Ancaq bundan on il əvvəl o, öz imzası ilə yazdığı məqalələrdə bu əsər haqqında xülasələr verib. Bir şeyi də qeyd edim ki, qəzetdə məqalənin ortasına Əsəd bəyin şəklini qoymuşdular. Gerhard Bölün "Müasir Şərq Mərkəzi" adlı arxivi var. Həmin arxivdə Əsəd bəyin məktubları, ünvanı, onunla bağlı müxtəlif sənədlər var. Gördüm ki, bütün mübahisələrin, onun haqqında deyilən fikirlərin çoxu, insanların öz fikirləridir. Yəni hamı bu arxivləri araşdırmadan rəy verir. Sizə bir misal çəkmək istəyirəm. "Əli və Nino"nun 23-cü bölümü ilə, "Rza şah" əsərinin 9-cu bölümü eynidir. Birincidə Əli xan Ənzəlidən Tehrana, ikincidə isə Rza şah Mazandarandan Tehrana gedir. Hər ikisində təsvirlər eynidir.

– Mətn də eynidir, yoxsa sadəcə olaraq mövzu oxşarlıqları var?

– Yox, təsvirlər, cümlələr eynidir.

– Bəs onda niyə eyni mövzunu iki əsərində də istifadə edib?

– Əsəd bəy bu cür fəndlərdən çox istifadə edirdi. O, 37 yaşında vəfat edib. Gənc yaşlarında dünyasını dəyişməyinə baxmayaraq 16 əsər yazıb. Təkcə onun "Nikolay" əsəri 421 səhifədir. "Stalin" də təxminən eyni həcmdədir. O, bu əsərlərindən pul qazanırdı. Başqa gəlir mənbəyi yox idi. Məhz buna görə də, Əsəd bəy digər əsərlərindən götürüb yenisinə əlavə edirdi. Tutaq ki, "Əli və Nino"da kor bir musiqiçidən danışır.

Eyni səhnə "Stalin"də də var.

– Əsəd bəyə "Əli və Nino"ya görə böyük hörmət var. Ancaq bununla belə deyə bilərikmi ki, onda Əsəd bəy istedadlı "işbaz" idi?

– Yox, o, həqiqi ədəbiyyatçıdır. Ədəbiyyat müəllifin gördüyündən ibarətdir. Rəssam ağacı olduğu kimi yox, duyduğu kimi çəkir. Bir çinli rəssamdan soruşublar ki, axı səma mavi rəngdədir, sən niyə qızılı rəngdə çəkmisən? Rəssam cavab verib ki, mən səmanı belə görürəm. Əsəd bəy də əsərlərini gördüyü kimi yazıb. Bir də ki, onun əsərlərinin dilində bir musiqi, lirika var. Biz öyünürük ki, türk poeziyasında Füzuli şeirində musiqi olan şairdir. Əsəd bəydə də bu var. Almanca da oxuduqda cümlələri çox qısa və axıcıdır.

– Tədqiqatçıların bəziləri deyir ki, o, türkcə yazıb, sonradan alman dilinə tərcümə olunub. Bəs siz necə düşünürsünüz?

– Almanca yazıb.

-Məhz bu fakt həmin əsərlərin Yusif Vəzir Çəmənzəminləyə aid olması faktını inkar edir.

- Bəli. Onun dayəsi alman olub və 5 yaşından etibarən Almaniyaya tətilə gedirmiş. Ona görə də alman dilini çox yaxşı bilirdi. Bununla bağlı əlimizdə sənəd var. Berlində qəhvəxanalarda almanca Şərqə aid hekayələr danışarmış. Amma üslubu tamamilə Şərqə aiddir. Əsərlərini oxuyan kimi bunu həmən duyursan. Ədəbiyyatda belədir ki, yazıçı gördüyü

insanların düşüncə tərzini, görünüşünü, adət-ənənəsini, atalar sözlərini yazır. Əsəd bəyin yaradıcılığına baxanda da görürsən ki, türk insanından bəhs edir.

- Necə oldu ki, Əsəd bəy Qurban Səidə çevrildi? Ümumiyyətlə publisistikasında imzası Əsəd bəy idi?

– Yox, alman dilinə uyğun olaraq Assad bəy imzası ilə yazırdı. Hətta bununla bağlı ilk tapdığım sənəddə adı "Məhəmməd Əsəd bəy – şərqşünas" yazılmışdı. Bizimkilər deyir ki, Şərq bunun yazdığı kimi deyil. Amma onun məqsədi bizim gördüyümüz şərqi avropalıya göstərmək deyildi. O, öz xəyalındakı Şərqi yazırdı. Bilirdi ki, Avropanın I dünya müharibəsindən sonra xəstə vəziyyətinə Şərq bir növ dərman ola bilər.

– Şərq mədəniyyətini Avropa dili ilə onlara danışıb, bir növ inteqarasiya edilib.

– Düzdür. Həm də bundan pul qazanıb. Avropada "Bibliya"dan sonra ən çox oxunan kitab "Min bir gecə" nağıllarıdır. Əsəd bəy də öz ədəbiyyatında nağıl yaradıb. Bizimkilər bunu başa düşmək istəmirlər. Oxuyurlar, deyirlər ki, bu yalandır. Ancaq adam yalandan ədəbiyyat yaradıb. Bunu anlamaq lazımdır. Bir dəfə tədbirlərin birində alman yazıçılarla iştirak edirdik. Alman yazıçılardan biri dedi ki, türk milləti həmişə qılıncla, imperiya ilə, döyüşləri ilə xatırlanırlar. Bəs sizdə lirika varmı? Mənim cavabım isə belə oldu: "Mən sizə şairlərimizdən, yazıçılarımızdan bəhs

etməyəcəyəm. Bizim 1200 il əvvəl, atalarımız ədəbiyyatlarını daşa yazıblar. Həmin abidələrin şərq tərəfində döyüşlərdən bəhs olunur, öyüd-nəsihətlər verilir. Abidənin qərb tərəfində isə bircə cümlə var. Onu da Uluq Tekin yazıb: "Nə vaxt son bahar gəlsə, gök gürlese, dağda ceyran kaçsa, seni hatırlarım ve ağlarım". Bundan gözəl lirika varmı? Özü də bunu şair yox, döyüşçü yazıb. Bizdə kişilər hisslərini göstərməkdən çəkiniblər. Ona görə də qərb tərəfə yazıb. Çünki qərb tərəf qaranlıq olurdu.

– Türkün dünyaya açılışına yazdığı məsləhətdi, öz içinə dönükdə yazdığı artıq lirikadır, intim hisslərdir.

– Bəli, o, təəcübləndi və dedi ki, nə qədər gözəl bir cümlədir. Bir də denən, yazım bunu. Bax ədəbiyyat budur. Əsəd bəy də bunu çox tez başa düşmüşdü. O, Ənvər Paşa haqqında "Bir çöl hekayəsində qəhrəman" adlı məqalə yazıb. Burada Ənvər Paşadan elə bəhs edər ki, həm gülürsən, həm də ağlayırsan. Məsələn, deyir ki, Buxaraya ağ at üstündə girdi, yanında az parıltılı geyimdə türk əsgərləri var idi. Buxaralı qadınlar damlara çıxdılar. Min ildə bir baş verəcək hadisə baş verdi. Qadınlar çarşablarının ön tərəfini cırdılar. Üzlərini ilk dəfə günəşə və Ənvər Paşaya göstərdilər". Burada adamın gözünün qarşısında Buxara gəlir.

– Siz onun hələ də çap olunmayan publisistik əsərlərini tərcümə etmisiniz. Bunları birgə çap

edəcəyik. İstərdik ki, Azərbaycan oxucusuna çatdıraq bu məqalələri.

– Bəli, tərcümə etmişəm. İnşəallah çap edərik. Əsərlərində Ənvər Paşanın ölümündən də bəhs edir. Burada rusu da, ermənini də, türkü də, ümumilikdə bizim tariximizi də görmək olur. Ağabekyan adlı bir erməni müsəlman qiyafəsinə büründü. Azərbaycanda böyümüşdü, türkcə bilirdi. KQB bunu Ənvər Paşanı tapmaq üçün göndərdi. Daha sonra bu erməni Qızıl Ordunun komandirinə onların yerini xəbər verdi. Ruslar Ənvər Paşanın dəstəsinə hücum etdilər. Onsuz da Ənvər Paşanın çox az adamı var idi. O, bu döyüşdə çiynindən və başından yaralandı. Cəsədi qumların üstünə düşdü. Bir əlində qılınc, bir əlində Quran var idi. Rus əsgəri onun sinəsini açdı və gördü ki, orada Osmanlı sultanının qızı Naciyə sultanın şəkli var idi. Baxın, burada tarixən türkə xəyanət edən bir milləti göstərir. Burada rusların həmişə özündən gücsüzə qarşı təcüvüzünü göstərir.

– Amma publisistik məqalədir.

– Təbii ki. Çingiz Xan haqqında "Şair Çingiz Xan" adlı bir məqalə yazmışdı. Çingiz Xan ordu komandirlərindən birinin xətrinə dəyir, sonradan ona şeir yazır. Təsəvvür edirsinizmi, şah öz əsgərinin könlünü almaq üçün ona şeir yazır. Əsəd bəy qərbliyə onun başa düşəcəyi və bizi sevəcəyi tərzdə bizi göstərir.

–Məmməd Əsəd bəyin ali təhsili olubmu?

– Orada 4 illik, türkologiya təhsili var. Əsəd bəy əvvəlcə rus məktəbində oxuyur, sonra "İstanbullu qız" romanındakı Azadənin getdiyi universitetə gedir. Romandakı türkoloq müəllim bunun da müəllimi idi.

– Bildiyim qədəri ilə Azadə ilə bağlı fərqli yanaşmanız var.

– Bizdə bu romanın adı "İstanbullu qız"dır. Ancaq almancadan hərfi tərcümədə "Altun buynuzdan gələn qız"dır. Qərblilər Haliçə "altun buynuz" deyirlər. Əsərin adı da oradan götürülüb, yəni İstanbuldan gələn qız deməkdir. Burada Azadə adlı bir paşa qızından bəhs edilir. Bəzi təqiqatçılar elə bilirlər ki, burada qızın adı Asiyadır. Ancaq əslində, Azadədir. Azad olunmuş qız deməkdir. Qız Berlində türkologiya oxuyur. Bizim Haluk Şenol adlı bir təqiqatçımız "Azadə kimdir?" adlı bir məqalə yazmışdı. Məqalədə müəllif iddia edir ki, Azadə Ayazi İsaki adlı bir türkoloqun qızı Səadət xanımdır. Çünki Səadət xanım da eyni universitetdə oxuyub, eyni hadisələrlə qarşılaşıb. Çox güman ki, elə orada Əsəd bəylə tanış olublar. Belə bir iddia var. Amma burada da müəyyən uyğunsuzluqlar var idi. "Əli və Nino" bizim üçün böyük əhəmiyyət kəsb edən bir əsərdir. Bu əsəri ədəbiyyatçılarla yanaşı gərək siyasətçilər də oxuyub, təhlil etsinlər. Çünki orada Azərbaycanın gələcəyini Gürcüstanla birləşməkdə, bu yolla Qafqazda güc olmaqda mümkün olduğunu deyir. Təklikdə neftin bizi haralara aparacağını göstərir. "Əli və Nino"da bütün ideologiyalar var.

Mustafa islamçıdır, Əli türkçüdür. Orada kimisi deyir ki, bütün nefti yandıraq, gedib dəvə otaraq. Kimisi deyir ki, sadəcə Azərbaycan olsun. Bu fikirlərin olması Azərbaycanın zənginliyidir.

Əsəd bəy ölümdən əvvəl "Eşqdən xəbərsiz" adlı əsər yazıb. Bu kitabın axırında Bakıdan bəhs edir. Əsərdə qeyd olunur ki,o, balkonda oturub Şirvanşah sarayının qapısındakı ərəbcə yazıları oxuyur. Əsəd bəy çox acılar çəkərək ölüb. Həmin acılarında belə Bakını, Azərbaycanı xatırlayıb. Məncə onun yazdıqlarını başqasının adına çıxarmaq doğru deyil. Yusif Vəzir Çəmənzəminli də böyük mütəffəkkir, gözəl yazıçımızdır. Amma Allah razı olmaz ki, Məmmədin haqqını, Əhmədə verəsən.

– Axı oxşar məsələlər də var. Yusif Vəzir Çəmənzəminlin də bir yazıçı və tarixçi olaraq türk-şərq mədəniyyətini mükəmməl bildiyini görürük. Qurban Səid adı ilə yazan müəlliflə üslubu çox yaxındır. O, da fəlsəfəni, tarixi gözəl bilir.

– Şəmil müəllim, siz də ədəbiyyatçısınız. Sizin "Odərlər" romanınızı oxudum. Görürəm ki, siz də Əsəd bəy kimi, Yusif Vəzir Çəmənzəminli kimi yazırsınız. Mənim yazdıqlarımı da siz oxusanız eyni şeyi hiss edəcəksiniz. Çünki mən bəzən Azərbaycan haqqında kitablar oxuyanda təəcüblənirəm. Fikirləşirəm ki, mən bu mövzunu müəllifin yanında danışmışammı ki, o, əsəri mənim düşündüyüm kimi yazıb. Baninin "Qafqaz günləri"nə baxsaq, çoxlu

oxşarlıqlar görərik. Hətta adlar da oxşardır. Orada da Əsəd adlı obraz var. Hamısı eyni dövrdə yaşayıblar və o dövrün hadisələrindən yazıblar. Məmməd Səid Ordubadi də, Ömər Faiq Nemənzadə də, hamısı erməni işğalından bəhs edbr. Amerikada bir-birinə oxşar ədəbiyyat olmaz. Çünki onların tarixi yoxdur. Yeni-yeni uydururlar, yaradırlar. Amma Azərbaycanda genetik kod var. Mədəniyyət, ənənə insanlara o qədər təsir edir ki, hara getsələr də bu təsirdən qurtula bilmirlər. Əsəd bəy də eyni hissləri yaşayıb. O dövrdəki müəlliflərin hamısı qoçulardan bəhs edib. "Əli və Nino" Türkiyədə 1971-ci ildə çap olunub. Orada da qoçuları "qoçi" yazıblar. Yəni səhv ediblər. O dövrdə qoçular olubdur. Hamı da bundan yazıb. Bir də onun məqalələrində müxtəlif mövzular var. Onun kitablarının satışı ilə bağlı Hans Biotski tədqiqat aparıb. Təbii ki, müəyyən qısqanclıqlar da var. O, deyir ki, heç də şişirdildiyi kimi Əsəd bəyin kitabları"bestseller" olmayıb. Kitabları 10-20 min satılıb. Həmin dövrdə bu böyük rəqəm idi. Əsəd bəyin məktubları var, orada böyük tirajla satıldığı ilə bağlı məlumatlar var.

– Məktublar kimə yazılıb?

– Bu məktublar Ömər Ehrenfelse yazıb. Əsas Qurban Səid onun xanımı idi.

– Onda belə çıxır ki, Qurban Səid Əsəd bəy olmadığını idda edirsiniz.

– Yox, Əsəd bəydir. Amma o vaxt, onlar iki əsəri çap

edəndə sonra, Almaniyada faşistlər tərəfindən qadağan edilirlər. Nəticədə Əsəd bəy İtaliyaya qaçıb. Sonra xanım Ehrenfels Ahmed Şimideye yazdığı məktubda deyir ki, Əsəd bəy romanı mənə verdi, mən bu romanı Qurban Səid adı ilə çap etdirdim. Amma əsər bakılı Məhəmməd Əsəd bəyindir.

– Yəni özü heç vaxt Qurban Səid sözünü işlətməyib?

– Xeyr, deməyib. Amma son dövrdə yazdığı "Eşqdən xəbərsiz" əsərini Qurban Səid imzası ilə yazıb.

– Hər hansı xatirə xarakterli bir əsəri varmı?

– "Həyat hekayəm" adlı məqaləsində öz həyatından bəhs edir. Onsuz da bütün əsərləri də avtobioqrafikdir. Hətta Stalindən yazanda da Bakıdan bəhs edir. Bir də əsərlərində təsirlənməyi də görmək olar. Görürsən ki, bütün əsərlərini tələsik yazıb. Məqsəd pul qazanmaq idi. O, nəşriyyata məktublar yazıb. Məktublarda yazır ki, siz niyə deyirsiniz ki, mənim kitablarım çox satmır. Əgər belədirsə, onda niyə növbəti əsər üçün əvvəlcədən 4 min mark ödəyirsiniz?

– Bir də deyəsən, ona pul əvəzinə qiymətli əşyalar verirdilər.

– "Del Şipegel"in 1973-cü il nüsxəsində deyilir ki, Əsəd bəyin "Əli və Nino" adlı kitabını yenidən çap edəcəyik. Bu alman ədəbiyyatı üçün bir renesans olacaq. Həmin məqalədə Əsəd bəyin dostunun fikirləri də yer alırdı: "Əsəd bəy bu əsəri üçün üç qızıl saat aldı". Son vaxtlar qonorar əvəzinə dəyərli əşyalar alırdı. İsveçdə onu deport etmək istəyirdilər. Ancaq Əsəd bəy bıçaqla ayağını kəsdi ki, onu deport etməsinlər. Xəstəxanaya yerləşdirdilər, ancaq yarası sağalmamış İtaliyaya göndərdilər. Ondan əvvəl də iki dəfə intihara cəhd edib. Xanımı Erika varlı ailədən idi. Onlar evlənirlər və Amerikaya gedirlər. Amerikada qadının ailəsi onu təhqir edir. Qəzetlərdə də onunla əlaqəli məqalələr çıxır ki, müsəlmanın arvadı ayağını

yuyur. Amerikada ona hamı müsəlman deyirdi. Arvadı Filip adlı bir yazıçıya qoşulub qaçır. Onda da Əsəd bəy intihara cəhd edir. Sonra İtaliyaya gedir və heç cür müalicə oluna bilmir. Hətta orada dostuna məktub göndərir ki, mənə yüz dollar göndər. Həmin dostu ilə birlikdə "Allahu-Əkbər" adlı roman yazıb. Həmin məktubun altında da dayəsi not yazıb ki, Əsəd bəy çox pis vəziyyətdədir, xahiş edirəm ona kömək edin. Onun bütün əsərlərində Azərbaycan var. Bizim tədqiqatçılar bəzi şeyləri naqqaşla çıxardıb, nəyisə sübut etmək istəyirlər. Ancaq əslində belə deyil.

– Nümunələr göstərə bilərsinizmi? Bizim təqdiqatçıların əsərlərini oxumusunuzmu?

– Mən Azərbaycandakı bütün tədqiqatları oxumuşam. Aslan Memmedli, Peneh Xelilov, Çerkez Qurbanlı,Tofiq Hüseynov … O, 1993-cü ildə "Ədəbi həyatla yaşayıram" kitabında deyir ki, bu Yusif Vəzir Çəmənzəminli deyil. Ancaq 2003-də çıxan "Qurban Səid, mübahisələr və həqiqətlər" kitabında deyir ki, Yusif Vəzirdir. Burada əsas problem odur ki, təqdiqadçılarımız alman dilini bilmir. Əsasən rus mənbələrdən oxuyurlar. Onun məqalələrini, məktublarını oxuduqda görürsən ki, Qurban Səid elə Əsəd bəydir.

Bir məqaləmdə yazmışdım. Rza Şah Mazandarandan Tehrana yola çıxır və yolda bir karvanla qarşılaşır. Əli xan da eyni cür karvanla qarşılaşır. Karvanın başçısı əlində əsa, zinqrov və dəvələrin üstündə yüklər var.

Orada soruşur ki, hara gedirsiniz? O biri əsərdə də eyni sualı soruşurlar. Cavab olaraq deyir ki, İmamın məzarına gedirik. Bu torbadakılar cəsədlərdir. Sahibləri bunları qurudub, imamın məzarının yanında dəfn etmək istəyirlər ki, qoy ölüləri cənnətə getsin. Sonra karvan yola davam edir, yolda türk məmurları onları yoxlayır. Bütün bunlar hər iki əsərdə eynidir. Biri var oxşarlıq olsun, biri də var eyni cür. Rza Şah da, Əli Xan da əmisinin yanına gedir. Hər ikisi Tehranın qapısında eyni şeyləri görürlər. Bir əsərində yazdığını, götürüb o birisinə də qoyub.
Bizim Şeyx Qalib adlı bir şairimiz var. Axırıncı divan şairi odur. Bir gün ona irad tuturlar ki, bəs sən əsərlərinin çoxunu Mövlananın "Məsnəvi"sindən götürmüsən. Gülüb deyir ki, oğurladımsa da öz malımı oğurladım. Gürcü yazıçı yazıb ki, dar küçələr, incə biləkli dəvələr, səhra. Əsəd bəy də belə yazıb. Çünki ikisi də eyni şeyi görüb yazıb. İçərişəhəri gəzən bilir ki, burada dar küçələr var. Amma Əsəd bəyin məqalələrini və əsərlərini oxuyan bilər ki, bunu yazan alman deyil. O, Şərq təfəkküründə amma alman dilində yazırdı. Gerhard onun haqqında deyirdi ki, avropalılar üçün şərq yaradan adam.

– Biz Əli xanın şiə olduğunu bilirik. Ancaq əsərdə əli bağlı namaz qıldığını görürük. Əsərin orijinalında da bu belədir, yoxsa tərcümədəmi dəyişilib?

– Bu detal tədqiqatçıların hamısının gözündən

yayınıb. Aslan Məmmədli romanla bağlı çox gözəl detallar tapıb. Qarabağ atları ilə bağlı, folklorla bağlı uyğunsuzluqları yazıb. Amma heç kim indiyə qədər bunu görməyib. Mən də təsadüfən gördüm. Ninonun uşağı olanda Əli Xanın atası ona deyir ki, gəl bir namaz qılaq. Damım üstünə çıxırlar namaz qılmağa. Orada deyilir ki, sağ əlini sol əlinin üstünə qoydu və namaz qılmağa başladı. Birinci fikirləşdim ki, bəlkə tərcümədə səhv olub. Ancaq mətnin orijinalına baxanda, eyni olduğunu gördüm. Ancaq bir şiə bu cür namaz qılmaz.

– Sizcə bu səhv nədən qaynaqlanırdı? Əsəd bəyin uzun müddət buradan uzaq qalmasıylamı əlaqələndirirsiniz?

– Əlbəttə ki. Əgər Yusif Vəzir yazsaydı, o səhvi etməzdi. Çünki o, bu cəmiyyətin içində böyümüşdü. Ancaq Əsəd bəy 12-13 yaşında buradan getmişdi. Onsuz da yazdıqlarına baxdıqda görürsən ki, çoxu fantaziya məhsuludur.

– Buradan çıxış edib deyə bilərikmi ki, yəhudilər Məmməd Əsəd bəyi başqa adla təqdim ediblər. Necə ki, Bondeştat Mirşə Şəfeh Vazehin əsərlərini öz adı ilə çıxarırdı.

– O dövrdə çoxlu yəhudi şərqşünaslar olub. Məsələn, Leon Ceyhun “Gökbayraq” adlı roman yazıb. Əsəd bəyin anası yəhudidir. Atasının Türküstanlı olduğunu deyir. Məktublarnda yazır ki, İbrahim adlı atası var. Anasının bolşevik olduğunu, atasının onu pul verib

azad etdiyini yazır. İndi biz bilə-bilmərik ki, adam həqiqətənmi türk olub? Bununla bağlı mübahisə də yersizdir. Tom Rays onun anası haqqında dediklərini inandırıcı hesab edir, ancaq atası ilə bağlı dediklərini inandırıcı hesab etmir. Özü deyir ki. İstanbula gedəndə ilk işim məscidlərə və saraylara qaçmaq oldu. Dərin sayğı içərisində oraları ziyarət etdim. Deyir ki, atam yəhudi deyildi. Bəziləri iddia edir ki, Əsəd bəy türkcə bilmir. Ancaq mən bir sənət tapmışam, orada məlum olur ki, bu iddialar da yanlışdır. "Cumhuriyyet" qazetenin qurucusu Yunus Nadirdir. Onun oğlu Nadir Nadir o dövrlərdə gənc tədqiqatçı idi. Nadir 1932-ci ilin, 10-cu ayında yazdığı məqaləsində bildirir ki, Mən Venesiyada "Rusiyanın ruhu" adlı konfransa qatıldım. Orada Əsəd bəy adlı azərbaycanlı bir gənclə tanış oldum. Konfransı Əsəd bəy verirdi. O, çox gözəl İstanbul türkcəsində danışırdı.

– Bir də səhv etmirəmsə, əlyazmasında da belə yazır.

– Bəli, əlyazmasında deyir ki, mən səndən çox pul aldım, ona görə də bunu bağışlayıram. Bunu türkcə yazır. Birdəki "Əli və Nino"dakı bütün orijinal kəlmələrin hamısı Türkiyə türkcəsindədir. 1937-ci il çapında, Gəncədə baş verən hadisələrdə "ileri" yazır, "irəli" yox. Türk dilini, ərəb əlifbasını bilirdi.

– Bəs niyə Azərbaycan dilində yox, Türkiyə türkcəsində yazır?

– O dövrlərdə ənənə belə idi ki, Azərbaycanda üç

cərəyan var idi. Cəlil Məmmədquluzadə və ətrafı deyirdi ki, Azərbaycan türkcəsi istifadə edilsin. "Xan" Xatirə Ədəbiyyatında çap olunan kitablarda oxumuşdum ki, Cəlil Məmmədquluzadə deyir ki, Əli bəy Hüseynzadə gəlib bizi ziyarət etdi və sizin türkcəniz, yəni Azərbaycan türkcəsi sözünü işlətdi. O dövrdə bir qismi Türkiyə türkcəsində, digərləri isə Azərbaycan türkcəsində yazırdılar.

– Azərbaycandan deportasiya olunanlar, Almaniyaya qaçanlar orada türklərlə bərabər yaşayırdılar. İstər-istəməz də ortaq dil kimi Türkiyə türkcəsindən istifadə edirdilər.

– Məmməd Əmin Rəsulzadə Berlində "Legioner" qəzetini çıxardırdı. Özü də bu qəzeti ortaq dildə çıxarırlar ki, digər millətlər də başa düşsün. Suya düşən saman çöpünə yapışardeyirlər.

– Məmməd Əmin Rəsulzadənin 30-cu illərdən sonrakı dilinə baxanda Türkiyə türkcəsinə meyil etdiyi görünür. Həm də müstəqil qalan bir ölkə Türkiyə idi və ora böyük bir ümid var idi.

– Keçən dəfə sizin bir aliminiz mənə dedi ki, biz bilirik ki, Türkiyəyə bir şey olsa, bizi parça-parça edərlər. Yəni Türkiyəyə mənəvi bir bağlılıq var.

– Əsəd bəyin ədəbiyyata gəlişi, bundan pul qazanmağın yolunu necə tapdı?

– Bu çox maraqlıdır. 21 yaşında işsiz-gücsüz vaxtları idi. Deyim ki, mən onun həmin dövrlərdə yaşadığı evə getmişəm. Onun qaldığı küçədə ədəbiyyat

qəhvəxanası var. Buranın yüzillik tarixi var. Əsəd bəy Berlin mühitinə bələd olduqdan sonra, görür ki, burada bütün elita qəhvəxanalarda olurlar. İnsanlar bura gələrək rəqs edir, içki içirdilər. Bu bir gün evinin qarşısındakı qəhvəxanaya gedir və deyir ki, Şərqdə bu tip yerlərdə hekayə danışırlar. Gəlin, mən də sizə hekayə danışım. Oranın sahibi birinci razılaşmır. Çünki fikirləşir ki, hamı əylənir, hekayəyə heç kim maraq göstərməz. Ancaq Əsəd bəy bir az təkid edir və axırda razılaşırlar. Birinci gün hekayə danışır, ikinci gün görür ki, dinləyicilərin sayı çoxalıb. Berlində çıxan "Ədəbiyyat dünyası" qəzetinin baş redaktoru da təsadüfən bu qəhvəxanaya gəlir və orada Əsəd bəylə tanış olur. Ona təklif edir ki, danışdığı hekayələri qəzet üçün yazsın. Əsəd bəyə ayrılan bölümün adı da "Şərqdən…" olur. Bu Şərqdən yaza-yaza Rusiya ədəbiyyatına keçir. Tolstoyun əsərlərindən, Qorkinin 60 illiyindən, Dostoyevskidən, Puşkindən məqalələr yazır. Mən bu məqalələrin hamısını tərcümə etmişəm. İnşəallah, sizinlə birgə çap edəcəyik. Puşkinin ölümünü çox gözəl yazıb. Puşkinin xanımı Natali Dantesə qarşı sevgi bəsləyirdi. Bu qadın hərbi hissədə Danteslə görüşürdü. Puşkin öləndən 7 il sonra qapıda duran həmin zabitlə evləndi. Məqalənin sonunda yazır ki, Rusiyada Tolstoy, Dostoyevski haqqında tənqid eşidə bilərsiniz, ancaq Puşkinə hamı hörmət edər və onun əleyhinə danışmaz. Ancaq şairin nəvəsi hazırda çobanlıq edir, oxuyub-yaza bilmir.

Bəlkə də, Əsəd bəyin bu haqda heç bir məlumatı belə yoxdur. Sadəcə olaraq oxucuda maraq oyatmaq üçün özü belə yazır. Qorki ilə Tolstoyun Krıma getməyindən də yazır. Yolda görür ki, iki adam durub söhbət edir. Bunlar onların arasından keçmək istəyəndə atlar kənara çəkilir və yol verirlər. Tolstoy Qorkiyə deyir ki, görürsənmi, adamlar bizi tanımasa da atlar bizi tanıyır. Sonra gedirlər Krıma, Qorki bir gün səhər oyanıb, görür ki, Tolstoy otaqda yoxdur. Çıxıb bunu axtarır, gəlib yanına çatanda dayanır. Çünki Tolstoy kərtənkələ ilə danışır. Kərtənkələyə deyir ki: "Necəsən?" Sonra da özü cavab verir ki, bilirəm, yaxşı deyilsən, heç mən də yaxşı deyiləm. Əsəd bəy Tolstoyun Dağıstanda tutulmağından da danışır. Şeyx Şamilin nəvəsi Sado adında biri Tolstoyu tutur. Deyir ki, həmin adam İstanbulda olanda özü mənə danışıb bu hadisəni. Yəni adamın yaxşı fantaziyası olub. Yaxud Dağıstandan bəhs edərək deyir ki, heç kim dağlıları uda bilməz. Nadir Şah Dağıstana getdi, onu qadınlar uddu. Heç kişilər qabağa çıxmadılar. Tarixdə belə bir şey olmayıb. O, öz bədii-təxəyyülü ilə avropalını dolayırdı. Bunu da bizimkilər başa düşmür.

– Əsas odur ki, öz fantaziyasını pula çevirə bilirdi. Əslində, Yusif Vəzir Çəmənzəminli bunu heç vaxt etməzdi. Çünki o yetərincə ciddi yazıçı idi.

– Bəli, Əsəd bəy avropalıları dolayıb. Professor Gerhard deyir ki, o, avropalı üçün Şərq yaradıb.

Amma bunu yaratmağın özü də ustalıq tələb edir. Adam 37 yaşında ölüb. Qısa müddətdə belə bir şey etmək dahilikdir.

– Deyəsən, övladı olmayıb.

– Olmayıb. 4 il evli qalıb, amma övladı olmayıb. Xanımı bunun yazılarını oxuyub və qəzetə gələrək onunla tanış olub. Qaynı pis adam imiş. Amerikaya gedəndə Əsəd bəyi çox lağa qoyublar.

– Məzarının harada olduğu bilinirmi?

– Məzarı dənizin kənarıdadır. Başında da sarıq kimi bir daş var. Üstünə də ərəbcə müsəlmanın məzarı yazılıb. Üzü də Kəbəyə tərəfdir. Avstraliyalı Kont Ömərə yazdığı məktublarda dindən, Allahdan bəhs edir. Deyir, kaş ki, bir müsəlman ölkəsində yaşayaydım. Napoliyə getdim, uzun müddət məscid axtardım. Düzdür içki də içirdi, amma Allaha da güclü inam duyurdu.

Mən burada intellektuallarla danışıram. Özünü ateist adlandıran ziyalılarımız var. Amma adamla söhbət edəndə görürsən ki, içində fərqli bir mənəviyyat var. Heç bir azərbaycannlı tam ateist ola bilmir. İçində mənəvi bir bağlılıq olur həmişə.

Dini dünya görüşü orta-statistik azərbaycanlı kimidir. Həm içər, həm Allaha inanar. Bizdəki din Dədə Qorquddan gəlir. Bir az şamanizm, bir az Allaha inam. Məhəmməd Əsəd bəy haqqında deyilən ən böyük tənqidlərdən biri də budur ki, o, başqa əsərlərdən çoxlu fikirlər götürüb. Bu hardasa doğrudur. Onun

yanında başqa dövlətlərdən gələn qaçqınlar var idi. Onların kitablarını, gündəliklərini alırdı. “Nikolay” əsərini oxuyursan, fikirləşirsən ki, rus xalqını bu qədər yaxından tanımaq mümkündürmü? Əsəd bəy rusca, farsca, türkcə bilirdi. Dil dairəsi geniş olub. “Lenin” adlı əsəri də çox maraqlıdır. Onun orijinalını tapa bilmirəm. Yalnız italiyancası var. Hazırda almancasını axtarıram.

– Leninə münasibəti necə idi?

– Bolşeviklərə böyük bir kin bəsləyirdi. Əsərlərində Çarlığa və Rus imperiyasına bir heyranlıq duyulur. Çünki o, dövrdə varlılar çox gözəl bir həyat yaşayıblar. Ona görə də bolşevikdən nifrət edirdi. Stalinə çopur deyirdi. Bakıda olanda Stalin onların evinə də gəlirmiş. Məncə Əsəd bəyin ən gözəl əsəri 1928-ci ildə Azərbaycan Cumhuriyyətinin 10 illiyinə həsr etdiyi məqaləsidir. Bu məqalədə Azərbaycanın demoqrafik məlumatları var. Azərbaycanı kimlərin yıxdığını deyir. Rusların həmişə ölkəni talan etdiyini bildirir. Bildirir ki, Azərbaycan Cumhuriyyətinin quruluşunun 10-cu ilidir.

– Onda deyə bilərik ki, Məmməd Əmin Rəsulzadəyə münasibəti də yaxşıdır.

– “Əli və Nino”da Xoyskidən bəhs edilir. Çox güman ki, o, Xoyskini tanıyırdı da. Amma Məmməd Əmin Rəsulzadə ilə bağlı bir məlumat yoxdur.

– Əsərlərində Azərbaycan ədəbiyyatı, tarixi barəsində hər hansı fikirləri varmı?

– Bunu çox axtardım. Deməli, bu adətən, sifarişlə yazıb. Avropada da daha çox Türkiyə ədəbiyyatı ilə bağlı sifarişlər verilirdi. Görünən odur ki, Azərbaycan ədəbiyyatı ilə bağlı sifariş olmayıb. Ancaq "Əkinçi" qəzeti ilə bağlı bir məqaləsi var. Burada Həsən bəy Zərdabidən bəhs edir. Azərbaycan Cumhuriyyətinin xaricə tələbə göndərdiyini yazır. Əsasən rus ədəbiyyatından və türk ədəbiyyatından danışır.

– Əlyazmaları harada saxlanılır?

– Əylazmaları, sənədləri əsasən "Modern Şərq Mərkəzi"ndə saxlanılır.

– Bizə bəlli olmayan hansısa materialları ola bilərmi?

– Var, hamısı da Tom Risedadır. Tim Andryu adında bir İtaliyan qadına 100-ə yaxın məktub yazıb. Bu qadın ona kömək edib. Pul verib, ona Mussolininin bioqrafiyasını yazıb, göndərib həmin məktublarda sənədlərinin necə itdiyindən bəhs edir. Deyir ki, bizim dövrdə doğum şəhadətnaməsi vermirdilər. Son yazdığı 6 əsərin əlyazmaları Tom Raysdadır. Bir-ikisini çap etdi. Berlində bir professor Hurman var. O, Əsəd bəy adına bir sayt açıb. Orada Tom Raysa ingiliscə məktublar yazıb ki, bu əsərlər sənin deyil. Sən bunları mütləq çap etməlisən, özündə saxlamaq ixtiyarın yoxdur. Çünki Tom Rays bu əsərləri çap etdirsə, Əsəd bəyin bioqrafiyası da tam ortaya çıxacaq. Bilərəkdən gizlədilir.

– Belə bir fikir var idi ki, Əsəd bəy haqqında arxiv

materiallarının 100 il sonra açılmağı ilə bağlı bir razılaşma var. Bu nə dərəcədə həqiqətə uyğundur?

– Yox, elə bir şey yoxdur. Hamısı Tom Raysdadır. Mən də məktub yazdım ona, ancaq cavab vermir.

Gözəl söhbətə görə təşəkkür edirəm. İndidən səbirsizlənirəm ki, Əsəd bəyin kitabını nəşr etdirəcəyik.

ORXAN ARAS A-dan Z-yə (2)

Müsahibədə yazarın üslubuna toxunulmayıb, sadəcə, bəzi sözlər bizim türkcəyə uyğunlaşdırılıb...

ÜVERTURA

Bu fikirdə bir yanlışım olursa, məni bağışlasınlar: məncə dünya ədəbiyyatının çox böyük bir bölümünü QÜRBƏT VƏ YA BİZİMCƏ MÜHACİR ƏDƏBİYYAT deyə bir abhava, bir moral,bir ovqat yaşamaqdadır və hətta türk şeirində və türk ədəbiyyatında QÜRBƏTÇİLƏR deyə bir yaradıcı qurum, cərəyan da olmuşdur.Təbii ki, QÜRBƏT anlamında bir həqiqi ağrılı qürbət və bir də ədəbi yaradıcıların içində yaratdığı bir QÜRBƏT anlayşı var. Məsələn: poetik desək Salyandan Bakıya gələn hər bir yaradıcı da, bəzən Bakını özünə qürbət kimi görə bilər.Amma bu qürbət təbii ki, nə Türk ədəbiYyatındakı QÜRBƏTÇİLƏRİN qürbətidir, nə də əsl anlamda desək, Qarsdan baş götürüb Almaniyaya gedən bir yazarın və bir insanın qürbət halinə oxşar. İkincilər daha dərin və daha acıvericidir.Bu anlamda Orxan Aras daha acı, iki qat bir qürbət içindədir: Orxan Aras "dədə yurdum Azərbaycandır" - deyir, Qarsa yerləşsələr də, bir

Orxan Aras. "Avropada Azərbaycan…"

zamanlar oranı da qürbət kimi görüb və o qürbətdən daha dərin olan bir qürbətə Almaniyaya üz tutub,yüzlərlə, minlərlə türk qürbətçisindən fərqli olan və bəlkə də onlardan biri olaraq tamam başqa bir dadda həyat yaşayır .Almaniyada da Azəraycan sevdasından əl çəkmir və bu dərdin ucbatından da iki kitab yazır həmin mövzuda : AZƏRBAYCAN DAVAMIZ və QARABAĞ MÜBARİZƏMİZ. Təbii ki, indicə oxuyacağınız sorğuda bəlkə də Azərbaycan teması ilə bərabər, iki qürbət çəkən bir insanın dərdli ürəyinin səsini eşitmək və bu ağrını daşıyan ürəyin tabına dözməyin zorluluğu var.

-Sizi Almaniyaya hansı rüzgarlar atdı?

-Abi, bildiyiniz kimi 1970-ci və 1980-ci illərdə Türkiyənin başında böyük bir anarşi bəlası vardı. Sovyetlər Əfqanıstanı işğal etmişdi və Türkiyə də işğal edilə bilir kimi bir düşüncə mövcutdu bizdə.Əslində Türkiyə Natonun üzvüydü, amma içəridən inqilab olub-Türkiyə Natodan çıxarılırsa Sovyetlərin işğalına uğrar deyə bir qorxu vardı.Bütün insanlar ülküçü və kommunist olaraq ikiyə bölünmüşdü. İndi sizə kommunist deyincə güləcəksiniz və çox normal qarşılayacaqsınız.Sizdə hər kəs kommunist partiyasına üzv olmaq üçün dəridən-qabıqdan çıxırdı. Bizdə isə kommunistlik psixologiyası bambaşqaydı. Mənə görə o zaman bir kommunist, Türkiyəmizi əlimizdən almaq istəyən bir rusdu. Hətta belə bir şüar hayqırırdıq:

Mao deyil, Alpaslan
Moskov deyil Türkistan!

İnsanlar bir-birlərini öldürürdülər.Tam beşmin gənç öldü. Hamımızın gözünü qan bürümüşdü. Həm Amerika, həm Rusiya Türkiyəyi qarışdırırdı.Təbliğat çox güclüydü. Məsəla biz, sizin burda ayaqlarınızda zəncir olduğunu düşünürdük. O illərdə Z.Xanlarova Türkiyəyə gəlmişdi.Biz gənclər hamımız bir ağızdan Azərimə Hürriyət, deyə bağırırdıq. Xanlarova çıxdı və belə dedi: Əzizim, bizdə azatlıqdır. Bunları mən "Azərbaycan Davamız" kitabımda və "Son Cənnət" romanımda da yazdım.

Sonra hər kəs bir-birini öldürməyə başlayınca 1980-ci ilində Türk ordusu hər şeyi öz əlinə aldı. Minlərcə gənc tutuldu, işgəncə gördülər, yüzlərcəsi öldü, edam edildilər. Və mənim kimi minlərcəsi də yurd dışına getdilər. Cem Qaraca, Zülfü Livaneli,Yücəl Feyzioğlu kimi səntəçilər də yurtdışına qaçdılar. Ölkədə tam bir faşizm yaşanırdı. 17 yaşında bir gəncin yaşı uyğun gəlmir deyə yaşını məhkəmə qararıyla böyüdüb edam etdilər. Əsgəri inqilabdan öncəki vəziyyət, qardaş qavğası, ölkənin iqtisadi durumu pisdi. Amma əsgərlər iqtidarı ələ alınca durum daha da pisləşdi. Hər yerdə basqı və zülm vardı.Suçlu-suçsuz baxılmır,hər kəsə zülm olunurdu. Mərhum Möhsin Yazıçıoğlu xatirələrində həbslərdə necə işgəncələr edildiyini anladmış.İnsan bunları oxuduqca inanmır. Belə bir zülüm mənim kimi 30 min gənci yurtdışına atdı.

Mən vətənimə ancaq dörd il sonra dönə bildim.Turqut Özal əvf çıxardı və çox insan döndü. Mən ordaykən məktəbə başladım, işlərimi qurdum və geriyə

dönə bilmədim.Amma o həsrət, o ayrılıq mənə 8 kitab və yüzlərcə məqalə yazdırdı. Yəni qürbətin yararı da oldu. Bir yabançı dil öyrəndim, həyata olan baxışlarım dəyişti. Başqa millətləri tanıdım. İrqçi duyğularım yox oldu. Ölkəm, insanlarımız, elim, akrabalarım, dostlarım daima yuxularıma girdi. Bir dəqiqə belə doğma yerləri unutmadım. Yazılarımda daima oralardan bəhsetdim. Halbuki oralardan 13 yaşımda çıxmışdım. Amma o məhəbbət, o şəfqət , o can, qurban sözü məni həmişə oralara bağlı tutdu. Atam, anam çox əziyyətlər çəkdilər.İçimdə sızlayan ən dərin yaralardan biri atamın bir sözüydü. O ölmədən öncə mənə: oğul oturub bir , doya-doya danışa bilmədik! Bu söz nə zaman ağlıma gəlsə gözlərim dolar. İndi bu sözləri söylərkən də gözlərimə yaş hücum etdi. Bu sözü bir şeir halində onun məzar daşına yazdırdım:

Babamdı, adı Latif, doğumu otuz yeddi
Baxamadıq onunla göz gözə doya-doya
Adam kimi yaşadı, röya nədir bilmədi
Ey yolcu, əsirgəmə mərhumdan bir Fatiha!

Mövlanə, “itirdiklərinizi başqa bir şəkildə təkrar bulursunuz”- demiş. Mən babamı (atamı) onun ruhuna layiq bir insan olmaya, and içərək tapmaya çalışıram. Babam kimi insanlar gördükcə içim rahatlayır, onu rəhmətlə yad edirəm. O oxuma-yazması olmayan insan mənim üçün böyük bir məktəb oldu. Cəsarəti, insanlığı,

məmləkəti, yurdu sevməyi, mərhəməti, mərdliyi, namusu ondan öyrəndim. "Son Cənnət" romanımda ondan ayrılış bölümü var. Onlar eynən yaşanmışdır və o bölümü mən oturub bir nəfəsə yazmışdım. Çünki hər şey, hər kəlmə, hər nəfəs alıb-vermə beynimə işləmişdi. Mənə Hz.Əlinin iki önəmli sözünü öyrətmişdi. Birisi, oğlum özünə rəva görmədiyin bir şeyi başqasına rəva görmə! İkincisi də, oğlum, hər yerdə, hər zaman, əlinə, bəlinə, dilinə sahib ol, demişdi. Şükürlər olsun mən buna hər zaman əməl etdim.Bu mənim bir andım oldu.

-At üstü söhbətlərimizdə çox gözəl işlər gördüyünüzü dediniz.Bəlkə bu söhbəti tarixləşdirək.

-Gördüyümüz işlərin gözəl vəya yaxşı olub-olmadığına təbii ki, tarix qarar verəcəq. 1990-ci ildə Almaniyada arkadaşlarla Azərbaycan Türkləri Federasyonunu qurduq. Bu təşkilat bütün Avropada çox sürətli bir şəkildə təşkilatlandı və fəaliyyətə başladı. Bu təşkilatlanma Azərbaycan üçün ilk diaspora fəaliyyətiydi və siz burda mitinqlərdə necə həyəcanlıydısanız bizdə orada eləcə həyəcanlıydıq. 20 Yanvardan 13 gün sonra 3 martda Kölndə sonra da Brükseldə ilk mitinqləri elədik və mitinqlərə minlərcə insan qatıldı. Peşpəşə mitinqlər hazırladıq, kitablar, məqalələr yazdıq. On minlərcə almanca, ingilizcə bildirilər dağıtdıq.

1991-ci ildə İstanbulda çıxan ilk kitabımın adı "Qarabağın Gözyaşları"dır. Yenə 1993-ci ildə yayınlanan "Azərbaycan Davamız" kitabım Avropada gördüyümüz o işləri anladır. Bunları lovğalanmaq üçün demirəm. Vətənə

borcumuzdu, elədik. Vətən üçün gərəkirsə ölünməyəcəksə yaşamanın anlamı nədir ki?

ORXAN ARAS MONOLOQU:

Anadolu tarix boyu, başdan-başa, göçlərin, ayrılıqların, savaşların arenası olmuşdur! Belə bir coğrafiyada dünyaya gəlmiş bir insanın duyğulu olmaması, sevgiyə, ayrılığa, acıya ağlamaması mümkünmü? Heç bir xalqın türküləri bizimkilər qədər yanğılı deyil. Heç bir ağıt (ağı) bizim ağılar qədər bir bıçaq kimi ürəyi doğramaz. Analarımız həmişə ya bir oğlan, ya bir qardaş, ya da bir ər ayrılığıyla qovrulmuşlar.Türkistandan gələn atalarımız dinclik,rahatlıq bilmədən həmişə köçhaköçdə olmuşlar! Evlərində isə, gözləri yaşlı, ürəyli analarımız… Bu üzdən iddia edirəm ki, ən duyğulu, ən sadiq, ən içdən, ən səmimi insanlar bizim insanlarımızdır. Əlim hər qələmə uzandığında, uzaqdakı min bir nağılla dolu ölkəmi, başına bəyaz bir örtü salmış və ürəyi sevgiylə dolu anamı, diyardan-diyara gedən dostlarımı düşünürəm. Bu nədənlə sətirlərimə hüzün və ayrılığın dadı keçmiş, kölgəsi düşər!

Köç kültürü, yəni iki kültür arasındakı sintez, məncə ağır-ağır yaranmağa başladı. Yeni quşaq (nəsil) həm türk kültüründən, həm də alman kültüründən bir şeylər öyrənmişlər. Gələcəklə bağlı heç də qaramsar (bədbin) deyiləm! Bünövrəsi olmayan bir vəziyyət olmasına

baxmayaraq, Almaniyadakı yerimiz gün keçdikcə daha da möhkəmlənir. Bütün pisliklərə,yuxarıdan aşağı baxmalara, xor baxmalara baxmayaraq türk gəncləri birlik və qaynaşmaya daha çox meyillidirlər. Məncə, təhsil bir çox zorluqların öhdəsindən gələcəkdir. Ailələrə düşən vəzifə, uşaqları üçün sağlam bir bünövrə yaramaqdır. Bu da mədəniyyəti zorlamaqla deyil, sevdirici və özümləşdirici metodlarla uşaqlara bunun yollarını göstərməkdir.

Burada yaşayan türklər üçün bir kültür həyatından söz edə bilirik. Bu bəllidir.Fərqlər, diqqətli bir baxışla görülə bilməkdədir. Toplumun hər qismində yüksələn insanlarımız diqqəti çəkməkdədir.

(Hər iki hissə davam edəcək)

Tofiq ABDİN

525-ci qəzet.- 2012.- 25 oktyabr.- S.23.

www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana. 2019

MÜNDƏRİCAT

Muəllifdən.....105